Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 69 (8092) ÇƏRŞƏNBƏ AXŞAMI, 2 aprel 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



◆ Döyüş səngərindən reportaj

## Lələtəpədən Ali Baş Komandana əsgər raportu: "Hücuma və qələbəyə tam hazırıq"



**Lələtəpədəyik...**
**Şəhid qanı ilə yoğrularaq müqəddəsləşən - zəfər rəmzinə çevrilən Vətən torpağıdır bura...**
**Üç il öncə, şanlı Aprel zəfərində hərb tariximizin qəhrəmanlıq salnaməsinə öz şərəfli imzalarını ataraq ölümsüzlüyə qovuşan igid oğullarımızın bizlərə miras qoyub getdiyi yüksəklikdir...**
**Bura "Lələtəpə fatehləri"nin yoludur...**
**Böyük Qələbəyə aparan yüksəklikdir...**
**Başımızın üstündə dalğalanan üçrəngli bayrağımız qürur mənbəyidir...**

### Qəhrəmanlıq rəmzimiz

Üç il öncə, tarixin məhz bu günü - aprelin 2-də burada şiddətli döyüşlər gedirdi. Ali Baş Komandan İlham Əliyevin əmrini yerinə yetirən igid oğullarımızın bəzisi bu yüksəklik uğrunda canından keçərək həm Lələtəpəni, həm də şəhidlik zirvəsini fəth edib qanları ilə qəhrəmanlıq dastanını yazdılar.

Aprel zəfərindən sonra məhz bu ərazidə "Lələtəpə fatehləri" ilə görüşən Ali Baş Komandan qələbəni qəhrəmanlıq rəmzi adlandırdı:

"Bu gün biz Lələtəpə ərazisindəyik. Hələ bir neçə ay bundan əvvəl bu ərazi işğal altında idi. Biz bu işğala son qoyduq. Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının ərazilərində işğal altında olan 2000 hektardan çox torpaq uğurlu əks-hücum əməliyyatı nəticəsində işğalçılardan azad edilmişdir. Minlərlə hektar torpağa bu gün Azərbaycan Ordusu tam nəzarət edir.

Aprel döyüşləri bizim şanlı qələbəmizdir. Lələtəpə əməliyyatı bizim qəhrəmanlıq rəmzimizdir. Lələtəpə tarixə düşdü. Əgər erməni silahlı qüvvələri Aprel döyüşlərindən düzgün nəticə çıxarmasalar, gələcəkdə Lələtəpə əməliyyatı kimi bir çox uğurlu əməliyyatlar olacaq".





### Cocuq Mərcanlıda təmin olunan sabitlik

Hər bir azərbaycanlıya fəxarət hissi yaşadan bu yüksəkliyə Aprel döyüşlərində böyük hərbi şücaət göstərmiş Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsi nəzarət edir.

Bu, o yüksəklikdir ki, işğaldan azad edilənə qədər Ermənistan silahlı bölmələri Horadiz şəhəri başda olmaqla, Füzuli rayonunun bütün yaşayış məntəqələrini, o cümlədən Azərbaycan Ordusunun mövqelərini açıq-aydın müşahidə edirdilər, istənilən yerə atəş zərbələri endirə bilirdilər.

Artıq belə bir təhlükə yoxdur. Azərbaycan əsgəri doğma dədə-baba torpağını göz bəbəyi kimi qoruyur. Hərbçilərimiz Lələtəpə yüksəkliyindən həm də Cəbrayıl rayonunun yenidən bərpa edilən Cocuq Mərcanlı kəndinin təhlükəsizliyini təmin edirlər. 26 ildən sonra öz yurd-yuvalarına köçən cocuq mərcanlılılar bu gün Azərbaycan əsgərinə güvənərək xoşbəxt həyat sürürlər.

Ardı 4-cü səh.

## Zəfərin Aprel zirvəsi

### Cocuq Mərcanlıdan indi QARABAĞ daha aydın görünür!



Azərbaycanın hərb tarixinə qızıl hərflərlə həkk olunmuş 2016-cı ilin Aprel zəfərindən bizi 3 illik zaman kəsiyi ayırır. İllər ötdükcə Aprel zəfərinin möhtəşəmliyi daha aydın görünür və bu barədə bir-birindən maraqlı fikirlər səsləndirilib. Şübhəsiz, gələcəkdə də tarixçilər, hərbi mütəxəssislər bu sahədə araşdırmaları, tədqiqatları davam etdirəcək, yeni faktları ortaya çıxaracaqlar.

Azərbaycan seçdiyi tarixi yola - müstəqilliyə, dövlətçiliyinin möhkəmləndirilməsinə, öz ərazi bütövlüyünün bərpasına və daim qorunub saxlanılmasına sadiq olduğunu, bu məqsədlə bütün zəruri tədbirləri əzmlə həyata keçirməyə hər zaman hazır olduğunu Aprel zəfəri ilə bir daha sübut etdi.

Nəticədə ölkəmizin beynəlxalq nüfuzu, rolu daha da yüksəldi. Bu gün bir çox dünyəvi problemlərin həllində möhtərəm Prezidentimiz cənab İlham Əliyevin təkliflər verməsi, mizan-tərəzisi pozulmuş dünyanı narahat edən qlobal problemlərə həsr olunmuş çoxsaylı beynəlxalq tədbirlərin məhz Bakıda keçirilməsi, bütün regional layihələrin həyata keçirilməsində Azərbaycanın söz sahibi olması, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq təşkilatlarda müzakirəsi zamanı ölkəmizin haqq işinin dəstəklənməsi bunun əyani sübutudur.

Aprel zəfəri, həmçinin Azərbaycanın ildən-ilə möhkəmlənən, artan iqtisadi qüdrətinin konkret göstəricisidir. Çünki ölkənin hərtərəfli inkişafı, o cümlədən, hərbi qüdrətinin möhkəmləndirilməsi bilavasitə iqtisadi yüksəlişlə bağlıdır!

Son 15 ildə ölkəmizin davamlı iqtisadi inkişafı göz qabağındadır! Azərbaycan iqtisadiyyatı dünya miqyasında rekord templərlə inkişaf edib - ümumi daxili məhsul 3,3 dəfə, o cümlədən qeyri-neft sektoru üzrə 2,8 dəfə, sənaye üzrə 2,6 dəfə, kənd təsərrüfatı üzrə 1,7 dəfə artıb! İxrac potensialı 4,7 dəfə, valyuta ehtiyatları 24 dəfə artıb və bu gün 45 milyard dollar təşkil edir! Azərbaycana təxminən 250 milyard dollar sərmayə qoyulub və bu sərmayənin yarısı xarici investisiyadır.

Dövlət başçısının rəhbərliyi ilə sistemli şəkildə həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsidir ki, Dünya İqtisadi Forumunun dərc etdiyi qlobal rəqabət qabiliyyəti reytinqində Azərbaycan hər il bir neçə pillə irəliləyir və bu gün ölkəmiz 35-ci yerdə qərarlaşıb. Dünya Bankının "Doing Business" hesabatında isə 25-ci yerdədir.

Dünyada işsizlik problemi getdikcə dərinləşir. Azərbaycanda isə ötən müddətdə 1,5 milyonu daimi olmaqla 2 milyondan çox yeni iş yeri, 100 mindən çox müəssisə yaradılıb, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,1 faizə enib.

Həyatda insanların əldə etdikləri nailiyyətlər nəticəsində bir-birinə qısqanclığın, paxıllığın dəfələrlə şahidi olmuşam! Ancaq dövlətlərin və onların rəhbərlərinin ölkəmizə qarşı qısqanclıq etmələri ağlıma belə gəlməzdi!

Ardı 3-cü səh.



## İlham Əliyev Rəcəb Tayyib Ərdoğanı təbrik etdi

Martın 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyədə keçirilən bələdiyyə seçkiləri ilə əlaqədar Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib.

Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı qurucusu olduğu və başçılıq etdiyi Ədalət və İnkişaf Partiyasının Türkiyədə keçirilən bələdiyyə seçkilərində inamlı qələbəsi münasibətilə təbrik edib.

Prezident İlham Əliyev bu qələbənin Prezident Rəcəb Tayyib Ərdoğana və onun yürütdüyü siyasətə Türkiyə xalqının dəstəyinin nümayişi olduğunu bildirib.

Prezident Rəcəb Tayyib Ərdoğan telefon zənginə və səmimi təbriklərə görə dövlətimizin başçısına minnətdarlığını ifadə edib.

Telefon danışığı zamanı xalqlarımızın iradəsinə uyğun olaraq Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin daim inkişaf edəcəyinə və möhkəmlənəcəyinə əminlik ifadə olunub.

***Prezidentin Mətbuat Xidməti***

## Adam DELİMXANOV: "Çeçen xalqı ən çətin vaxtlarda Heydər Əliyevin göstərdiyi qayğı və dəstəyi böyük ehtiramla xatırlayır"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 1-də Rusiya Federasiyası Çeçenistan Respublikası başçısının müşaviri, Rusiya Dövlət Dumasının deputatı Adam Delimxanovu qəbul edib.

AZƏRTAC xəbər verir ki, Adam Delimxanov Çeçenistan Respublikasının başçısı Ramzan Kadırovun salamlarını dövlətimizin başçısına çatdırdı və bildirdi ki, Ramzan Kadırov Prezident İlham Əliyevi özünə qardaş hesab edir. Çeçen xalqının Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevi heç vaxt unutmayacağını vurğulayan Adam Delimxanov ən çətin vaxtlarda Heydər Əliyevin onlara göstərdiyi qayğı və dəstəyi böyük ehtiramla xatırladı. O, xalqlarımız arasında sarsılmaz dostluq və qardaşlıq münasibətlərinin mövcud olduğunu dedi.



Prezident İlham Əliyev Çeçenistan Respublikasının başçısı Ramzan Kadırovun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Ramzan Kadırova çatdırmağı xahiş etdi və qeyd etdi ki, onu Ramzan Kadırovla qardaşlıq əlaqələri bağlayır. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan və çeçen xalqları arasında dostluq və qardaşlıq əlaqələrinin dərin tarixi kökləri var və tarix boyu bu əlaqələr daim möhkəmlənib.

Prezident İlham Əliyev Ramzan Kadırovun bu yaxınlarda ölkəmizə səfərini məmnunluqla xatırlayaraq Ramzan Kadırovun çeçen xalqının lideri Hacı Əhməd Kadırovun siyasətini uğurla davam etdirdiyini, Çeçenistanda sabitliyin və əmin-amanlığın bərqərar olduğunu, genişmiqyaslı quruculuq işlərinin həyata keçirildiyini qeyd etdi.

Söhbət zamanı Azərbaycan ilə Çeçenistan Respublikası arasında əlaqələrin Azərbaycan-Rusiya ikitərəfli münasibətlərinin daha da inkişafı baxımından əhəmiyyəti vurğulandı.

## İmişli rayonunun Bəhrəmtəpə-Göbəktala-Məhəmmədli-İmişli-Cəfərli-Oruclu-Ağaməmmədli avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. İyirmi doqquz min nəfər əhalinin yaşadığı 8 yaşayış məntəqəsini birləşdirən Bəhrəmtəpə-Göbəktala-Məhəmmədli-İmişli-Cəfərli-Oruclu-Ağaməmmədli avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 15,4 milyon (on beş milyon dörd yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 aprel 2019-cu il*

## Soltan Hacıbəyovun 100 illik yubileyinin qeyd edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2019-cu ilin may ayında görkəmli Azərbaycan bəstəkarı, tanınmış pedaqoq, dirijor və musiqi xadimi, SSRİ xalq artisti, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, professor Soltan İsmayıl oğlu Hacıbəyovun anadan olmasının 100 illiyi tamam olur.

Soltan Hacıbəyov xalq sənəti xəzinəsindən və dünya musiqi təcrübəsindən faydalanaraq müxtəlif janrlarda özünəməxsus üslubda epik vüsəti, dərin lirizmi və dolğun məzmunu ilə səciyyələnən qiymətli əsərlər yaratmışdır. Azərbaycan simfonik musiqisinin təşəkkülü və inkişafında onun mühüm xidmətləri vardır. Geniş diapazonlu yaradıcılığa malik bəstəkar simfoniya, simfonik lövhə və süitaları, həmçinin opera və balet, dram tamaşalarına musiqi, mahnı və romansları ilə Azərbaycanın mədəniyyət xəzinəsini daha da zənginləşdirmişdir. Soltan Hacıbəyov respublikanın mədəni və ictimai həyatında daim yaxından iştirak etmiş, pedaqoq kimi gənc kadrların hazırlanması istiqamətində uzun illər səmərəli fəaliyyət göstərmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan bəstəkarlıq məktəbinin inkişafına layiqli töhfələr vermiş görkəmli sənətkar Soltan Hacıbəyovun anadan olmasının 100-cü ildönümünün qeyd olunmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Bəstəkarlar İttifaqının təkliflərini nəzərə almaqla, SSRİ xalq artisti Soltan Hacıbəyovun 100 illik yubileyinə həsr edilmiş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 aprel 2019-cu il*

# Prezident İlham Əliyev yeni hərbi zəfərlərin sərkərdəsi olacaq

**Sosial-iqtisadi qüdrəti ilə dünya miqyasında möhtəşəm uğur nümunəsi yaradan Azərbaycanın yaşadığı dinamik tərəqqi Silahlı Qüvvələrimizə də sirayət edərək onun dünyanın ən güclüləri sırasında yer almasına rəvac verib. Bu gün ordumuz istər döyüş qabiliyyətinin yüksək olması, istərsə də şəxsi heyətdən tutmuş maddi-texniki təminata qədər əldə etdiyi nailiyyətlərlə dünya liderləri sırasında yer almağı bacarıb. Elə bu səbəbdəndir ki, ordumuz yağı düşməni də getdikcə daha çox lərzəyə salır, təcavüzkar istənilən an ən sərt zərbəni ala biləcəyini yaxşı dərk edir.**



Ordusuna tam güvənən hər bir Azərbaycan vətəndaşı, elə dünya ictimaiyyəti də çox yaxşı bilir ki, işğal altındakı ərazilərin azad olunacağı gün uzaqda deyil. Elə işğalından artıq 26 il ötən Kəlbəcər rayonunun da yağı tapdağından qurutulacağı zəfər gününə çox qalmayıb. Azərbaycanın işğal olunmuş rayonları arasında ərazicə ən böyüyü olan Kəlbəcərin zəbt edilməsindən sonra BMT Təhlükəsizlik Şurası 822 saylı qətnamə qəbul edib. Qətnamədə bütün işğalçı qüvvələrin Kəlbəcər və Azərbaycanın digər işğal olunmuş rayonlarından dərhal çıxarılması tələb olunur. Lakin indiyədək həmin qətnamədən irəli gələn hər hansı öhdəlik yerinə yetirilməyib.

Məhz bu səbəbdən xalqımız, o cümlədən doğma yurd həsrəti çəkən Kəlbəcər sakinləri əsas ümidlərini müzəffər Azərbaycan Ordusuna bağlayıblar. Bu ordu isə yağı düşməni hər an tar-mar edə biləcəyini 2016-cı ilin məlum Aprel döyüşlərində çox aydın şəkildə isbata yetirib.

Bu gün Azərbaycan Ordusunun Aprel zəfərindən 3 il ötür. Hər bir Azərbaycan gəncinin vətənpərvərlik hisslərini daha da gücləndirən, ordumuza olan inamı artıran bu döyüşlər hələ uzun illər yaddaşlardan silinməyəcək. Silahlı Qüvvələrmizin o vaxt endirdiyi sarsıdıcı zərbədən hələ də özünə gələ bilməyən düşmən üzərində şanlı qələbə Azərbaycan əsgərinin döyüş və mənəvi-psixoloji hazırlığının, əzminin yüksək olduğunu nümayiş etdirdi. Məhz Aprel döyüşləri Ermənistana, onun himayədarlarına, bütövlükdə dünyaya dövlətimizin və ordumuzun gücünü bir daha göstərdi.

Bu döyüşlər eyni zamanda xalqımızın birliyinə, həmrəyliyinə, vətənpərvərliyinə, Azərbaycanın heç vaxt işğalla barışmayacağına, nəyin bahasına olursa-olsun, ərazi bütövlüyünü bərpa etmək əzmində olduğuna dair işğalçı tərəfə çox aydın mesajlar verilməsi ilə də yadda qaldı. Aprel döyüşlərində Azərbaycan Ordusunun qazandığı qələbə ölkəmizin bütün vətəndaşları kimi, biz kəlbəcərlilərin də böyük ruh yüksəkliyinə səbəb oldu. Bir daha bəlli oldu ki, lazım gələndə Azərbaycan əsgəri əsl peşəkarlıq, intizam, yüksək döyüş ruhu nümayiş etdirərək düşmənin layiqli dərsini verməyə tam hazırdır.

Məhz Aprel döyüşlərindən sonra erməni ordusu Azərbaycan Silahlı Qüvvələrindən dəfələrlə zəif olduğuna dair deyilənlərin tam həqiqəti əks etdirdiyini aydın gördü. Bu müharibənin gedişində "güclü erməni ordusu" mifinin sadəcə nağıllardan ibarət olduğu üzə çıxdı. Həmin dörd günlük müharibə doğma torpaqlar uğrunda mübarizənin mühüm bir hissəsi olmaqla yanaşı, həm də işğal altındakı ərazilərin azad edilməsinin başlanğıcı oldu. Çünki məhz bu döyüşlərlə Füzuli və Cəbrayıl rayonlarında, eyni zamanda, Ağdərə rayonunda bir çox strateji yerlər işğalçılardan azad olundu. Zirvəsində üçrəngli bayrağımızın dalğalandığı Lələtəpə ərazisindən düşmən işğalı altında qalan on minlərlə hektar torpağa ordumuz tam nəzarət edir.

Aprel döyüşlərinin davamı olaraq məşhur Günnüt əməliyyatı ilə də verilən dərsləri düşmən yaddan çıxarmayıb. Xatırladaq ki, Əlahiddə Ümumqoşun Ordusunun bölmələri uğurlu əks-həmlə ilə düşməni Şərur rayonunun işğal altındakı Günnüt kəndindən çəkilməyə məcbur etdi. "Ağbulaq" yüksəkliyi, Qızılqaya dağı, Xunut dağı və Mehridağı azad olundu, Dərələyəz mahalının Arpa kəndi isə Azərbaycan Ordusunun nəzarəti altına keçdi. Artıq bu yüksəkliklərdən ordumuz Yerevan-Yeğeqnadzor-Gorus-Laçın-Xankəndi avtomobil yolu və bir neçə ətraf yaşayış məntəqəsinə nəzarət edir.

Çox tezliklə işğal altındakı digər ərazilər üzərində də tam nəzarəti həyata keçirəcəyimizə heç bir şübhə yoxdur. Bu möhtəşəm missiyanı Azərbaycan Ordusu tam şəkildə həyata keçirmək iqtidarındadır.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev də çox aydın şəkildə vurğulayır ki, bu gün ordumuz həm döyüş qabiliyyəti, vətənpərvərlik ruhu və maddi-texniki təminat baxımından dünya miqyasında güclü ordular sırasındadır və lazım gələrsə, ərazi bütövlüyümüzü bərpa edəcək: *"Biz işğal edilmiş torpaqlara qayıdacağıq. Bu, bizim əsas vəzifəmizdir. Necə ki, azad edilmiş torpaqlarda bu gün bayrağımız dalğalanır, hələ də işğal altında olan bütün başqa torpaqlarımızda da Azərbaycan bayrağı qaldırılacaqdır".*

Buna hər bir Azərbaycan vətəndaşı qəti surətdə əmindir və qələbə səadətinin qeyd olunacağı günün uzaqda olmadığını da çox yaxşı bilir.

***Həbib MİSİROV,***
***"Aşıq Şəmşir" Mədəniyyət Ocağı İctimai Birliyinin sədr müavini***

## Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycanla yaxşı əməkdaşlığı mövcuddur

Aprelin 1-də Milli Məclis Sədrinin müavini Bahar Muradova Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Elena Aymone Sessera ilə görüşüb.

Parlamentin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Bahar Muradova Azərbaycanın Beynəlxalq Qızıl Xaç Komitəsi ilə əməkdaşlığa böyük önəm verdiyini deyib. Bildirib ki, uzun illərdir bu təşkilat qarşıda dayanan vəzifələrin həyata keçirilməsi üçün şəffaf fəaliyyət göstərir. Əməkdaşlığımız həm təşkilatın dəyərlərinə, həm də Azərbaycanın maraqlarına uyğun şəkildə davam edir.



Qarşılıqlı görüşlərin intensivliyinin artırılmasının vacibliyini qeyd edən Milli Məclis Sədrinin müavini ermənilərin girov götürdüyü Dilqəm Əsgərov və Şahbaz Quliyev üçün keçirdikləri narahatlığa görə Beynəlxalq Qızıl Xaç Komitəsinə təşəkkürünü bildirib. Qeyd edib ki, biz əsirlikdə yaşayan bütün insanların azad edilməsinin tərəfdarıyıq.

Söhbət zamanı Bahar Muradova Ermənistanla təmas xəttində yaşayan Azərbaycan vətəndaşlarının problemlərinin həlli, ermənilərin girov götürdüyü Elvin İbrahimovun azad edilməsi üçün Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı nümayəndəliyi ilə birgə göstərilən səylərin daha da artırılmasının vacib olduğunu vurğulayıb.

Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Elena Aymone Sessera qurumun ölkəmizlə yaxşı əməkdaşlıq qurduğunu, parlamentlə də qanunvericilik istiqamətində uğurlu əməkdaşlıq etdiyini diqqətə çatdırıb. O, bu faydalı əməkdaşlığın bundan sonra da davam edəcəyinə əminliyini bildirib. Qonaq diqqətə çatdırıb ki, onlar girov götürülmüş şəxslərə mütəmadi olaraq baş çəkir, onların sağlamlıqları ilə maraqlanır və ailələrinə məlumat verirlər.

Söhbət zamanı qarşıda dayanan digər vəzifələr və görüləcək işlər barədə fikir mübadiləsi aparılıb.

# Hər bir azərbaycanlının Prezidenti

Martın 26-da Bakının Nizami rayonundakı "Diqlas" ticarət mərkəzində baş verən yanğın hadisəsi nə qədər faciəvi nəticələr versə də, sosial siyasətin reallaşması kontekstində xüsusi səciyyə daşıdı. Bir daha məlum oldu ki, Azərbaycan dövləti bu cür hadisələr zamanı çətin vəziyyətə düşən öz vətəndaşını tək qoymur, ona ən yüksək səviyyədə maddi və mənəvi dəstək göstərir. Milli Məclisin deputatlarının qəzetimizə açıqlamaları da bu barədədir.





### İlham Əliyev heç bir vətəndaşı naümid buraxmır

**Hüseynbala MİRƏLƏMOV,** *Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatının sədri:*

- Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar sübut edir ki, vətəndaşın rifahı dövlət üçün hər zaman prioritet məsələdir. Təbii fəlakətlər və arzuolunmaz bədbəxt hadisələr zamanı durumu ağırlaşan hər bir vətəndaşın yanında olan Prezident heç kəsi naümid buraxmır. Bakının Nizami rayonundakı "Diqlas" ticarət mərkəzində baş verən yanğınla əlaqədar operativ şəkildə müvafiq addımların atılması zamanı da biz bir daha bu həqiqətin şahidi olduq.

Prezident İlham Əliyevin yanğın baş verən gündən etibarən məsələni şəxsi nəzarətinə götürməsi, müşavirə keçirməsi, zərər çəkmiş sahibkarlara dövlət dəstəyinin təmin edilməsi üçün müvafiq komissiyanın yaradılması və daha sonra yanğın nəticəsində zərər çəkmiş sahibkarlara üç milyon manat maddi yardım göstərilməsi haqqında sərəncam imzalaması dövlətin heç bir halda öz vətəndaşını çıxılmaz vəziyyətdə qoymadığının bariz nümunəsidir. Bütün bunlar göstərir ki, Azərbaycan dövləti zərər çəkmiş sahibkarların iş fəaliyyətinin bərpa edilməsi üçün lazım olan bütün addımları atır. Onlara həm maddi yardım edir, həm güzəştli şərtlərlə kreditlər verir, həm də bizneslərini davam etdirmək üçün müvafiq ticarət mərkəzlərində yerlə təmin olunmalarına kömək göstərir.

Nəzərə alsaq ki, əksər hallarda dünyanın inkişaf etmiş ölkələrində dövlət sığortalanmamış əmlaklarla bağlı yardım qərarları qəbul etmir, o zaman Azərbaycan dövlətinin və Prezidentinin bu addımlarla öz vətəndaşlarına nə qədər dəyər verdiyinin, onların problemlərinə nə qədər həssas münasibət sərgilədiyinin şahidi oluruq.

Bu addımlar 2003-cü ildən başlayaraq Azərbaycanda gerçəkləşdirilən uğurlu sosial siyasətin tərkib hissəsi və davamıdır. Ötən 15 ildə baş vermiş bəzi hadisələrə nəzər yetirsək, Prezident İlham Əliyevin daim öz vətəndaşının yanında olduğunu görərik. İlham Əliyev hələ 2004-cü ilin yanvarında Lənkəran şəhərində yaşayış binasının uçmasına çevik reaksiya göstərmiş, dərhal hadisə yerinə getmiş, zərərçəkənlərə maddi yardım göstərilməsi üçün tapşırıqlar vermişdi. 2007-ci ilin avqustunda Bakının Yasamal rayonu ərazisində Murtuza Muxtarov və Məhəmməd Naxçıvani küçələrinin kəsişməsində çoxsaylı insan tələfatı ilə nəticələnən hündürmərtəbəli binanın uçması hər kəsin yadındadır. Həmin hadisə ilə bağlı həlak olanların yaxınlarına və yaralananlara ən böyük mənəvi dəstək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevdən gəldi.

2010-cu ilin may ayında Prezident İlham Əliyevin sel fəlakəti yaşanan rayonlara baş çəkməsi, müşavirə keçirməsi dövlət başçısının yaranmış problemdən zərər çəkən insanlara həssas münasibətinin növbəti nümayişi oldu. Həyata keçirilən operativ tədbirlər nəticəsində kənardan heç bir kömək olmadan, daxili imkanlar hesabına qısa zamanda çaylarda daşqınların qarşısı alındı. Sonrakı mərhələdə bütün uçmuş evlərin, sosial obyektlərin yerinə təzələri tikildi, yeni yollar salındı.

2012-ci ilin may ayında şimal-qərb bölgəsində baş verən zəlzələdən zərər çəkənlərə də ən böyük dəstək Prezident İlham Əliyevdən gəldi. Bu yaxınlarda Şamaxıda baş vermiş zəlzələdən də sonra Prezidentin hadisə yerinə şəxsən baş çəkməsi, sakinlərlə görüşməsi, daha sonra görülən işlərlə tanış olmaq üçün həmin bölgəyə yenidən səfər etməsi ölkə rəhbərinin əsl lider kimi öz vətəndaşına diqqət və qayğı ilə yanaşmasının təcəssümü idi.

Prezidentin bu münasibətini indi ticarət mərkəzindəki yanğında zərər çəkmiş sahibkarlar da gördülər. Yanğınla əlaqədar Prezidentin sədrliyi ilə keçirilən müşavirədə dövlət başçısı vurğulayıb: *"Baş vermiş yanğınla bağlı, əlbəttə ki, ilk növbədə, biz burada əziyyət çəkən, maddi ziyan dəyən sahibkarların vəziyyətini başa düşməliyik, onlara kömək göstərməliyik və göstərəcəyik".*

Bənzərsiz təşəbbüslərin, genişmiqyaslı islahatların müəllifi olan Prezident İlham Əliyevin müşavirədə səsləndirdiyi bu fikirlər Azərbaycanda aparılan çox güclü sosial siyasətə sadiqliyin, dövlətin hər bir halda vətəndaşın ümid yeri olduğunun isbatıdır.

Xalqımız isə hər zaman olduğu kimi bu dəfə də öz Prezidentinin ətrafında sıx birləşərək, sahibkarlar dövlətin bu addımlarını yüksək minnətdarlıq hissi ilə qarşılayaraq bir daha Azərbaycanda hətta təbii fəlakətlərə də siyasi don geyindirməyə çalışan, ölkəmizdə baş verən hər bir olaydan öz xəbis və merkantil niyyətləri naminə istifadə etmək üçün pusquda dayanan antimilli bədxahları növbəti dəfə xəyal qırıqlığına uğratdı.

Beləliklə, bütün dünya gördü ki, Azərbaycan dövlətinin, Prezident İlham Əliyevin mükəmməl sosial siyasət konsepsiyası yalnız vətəndaşların rifahının yüksəldilməsinə xidmət edən mütərəqqi addımlarla yekunlaşmır. Bu konsepsiya eyni zamanda fövqəladə hadisələr zamanı çətin vəziyyətə düşən vətəndaşa dövlət tərəfindən hər cür maddi dəstəyin göstərilməsini özündə ehtiva edir. Cənab İlham Əliyevin hadisəyə operativ münasibəti, müşavirə keçirməsi, aidiyyəti dövlət orqanlarına müvafiq tapşırıqlar verməsi, sərəncamlar imzalaması bir daha dövlət başçısının öz vətəndaşının probleminə həssas münasibətindən xəbər verdi.

### Azərbaycan dövləti öz vətəndaşının yanındadır

**Nəsib MƏHƏMƏLİYEV,**
*Milli Məclisin deputatı:*

- Qazanılan möhtəşəm nailiyyətlər, sosial-iqtisadi yüksəliş ölkəmizin onilliklərə bərabər inkişaf yolu keçdiyini düşünməyə əsas verir. Bu inkişaf təsdiq edir ki, müasir Azərbaycanın qurucusu, ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan ölkəmizin inkişafına və modernləşdirilməsinə hədəflənmiş siyasət Prezident İlham Əliyevin rəhbərliyi ilə layiqincə davam etdirilir.

Bununla yanaşı, dövlət başçısının cəmiyyətin sosial sifarişinə uyğun çevik qərarlar qəbul etməsi, hər bir məsələyə həssaslıqla yanaşması, daim ictimaiyyət arasında olması cəmiyyətin nəinki tərəqqisini, həm də xoş ovqatını təmin edən mühüm nüanslardır. Ötən 16 ildə ölkəmizin inkişafı istiqamətində böyük məsafələr qət edən, xalqa verdiyi bütün vədləri yerinə yetirən Prezident İlham Əliyev hər addımda məhz vətəndaş mənafeyini əsas götürüb.

Azərbaycan Prezidenti üçün vətəndaş maraqlarının bütün məsələlərin fövqündə dayandığını göstərən başqa bir məqam isə fövqəladə hallardan, texnogen hadisələrdən irəli gələn ekstremal şəraitin yarandığı zaman vətəndaşların yanında olması, onların dərdlərinə şərik çıxması, diqqət və qayğısını əsirgəməməsidir. Məhz bu amil böyük mənəvi dəstək olmaqla yanaşı, bütün maddi köməklərdən yüksəkdə dayanır. Ötən dövrlərdə baş vermiş ayrı-ayrı qəzalar və təbii fəlakətlər zamanı ağır hadisələrin insanların həyatında dərin iz buraxmaması üçün dövlət tərəfindən bütün lazımi tədbirlərin həyata keçirilməsi ilə yanaşı, Prezident İlham Əliyevin diqqətcilliyi, hadisə yerlərinə baş çəkməsi bütün ölkə vətəndaşları tərəfindən təqdir olunur. Bir neçə il əvvəl Lənkəranda və Bakıda baş vermiş bina uçqunları, Saatlı və Sabirabaddakı sel zamanı zərər çəkən vətəndaşlara ən böyük dəstək Prezident İlham Əliyevdən gəlmişdi. Eyni zamanda 2012-ci ildə respublikanın şimal-qərb bölgəsində, o cümlədən mənim deputat seçildiyim Balakən rayonunda baş vermiş zəlzələdən sonra Prezidentin təbii fəlakətin nəticələrinin aradan qaldırılması ilə bağlı görülən tədbirlərlə yerində tanış olmaq üçün zəlzələ zonasına səfəri göstərdi ki, hər bir məsələ dövlət başçısının şəxsən nəzarəti altındadır. Bunun nəticəsidir ki, qısa müddətdə zərər çəkən bütün ailələr üçün dövlət tərəfindən yeni evlər inşa olundu.

Bir neçə gün əvvəl Bakının Nizami rayonundakı "Diqlas" ticarət mərkəzində baş verən yanğın hadisəsinin ilk gündən Prezident İlham Əliyev tərəfindən nəzarətə götürülməsi bir daha təsdiqlədi ki, öz vətəndaşının yanında olan Azərbaycan dövləti onu çətin gündə darda qoymur.

Düzdür, bu ticarət mərkəzi özəl sektora aid bir müəssisədir. Ona görə hər bir sahibkar öz biznesini sığortalamalı və dəyən ziyan sığorta şirkətləri tərəfindən ödənilməlidir. Lakin onların sığortalarının olmamasına baxmayaraq dövlət problemin həllini öz nəzarətinə götürdü. Bu baxımdan Prezident İlham Əliyevin sədrliyi ilə martın 28-də keçirilən müşavirə göstərdi ki, dövlət təkcə sahibkarlıq fəaliyyəti üçün münbit zəmin yaratmır və ya iş adamlarına yalnız güzəştli şərtlərlə kreditlər ayırmır. Dövlət həm də çətin vəziyyətlərdə sahibkara dəstək olur, ona maddi yardım göstərir.

Prezident müşavirədə aidiyyəti dövlət qurumlarına ticarət mərkəzində çalışan sahibkarlarla bir-bir görüşmələri, problemlərini dinləmələri və onlara maddi yardım edilməsi ilə bağlı göstərişlər verdi. *"Sahibkarlar bir daha görəcəklər ki, dövlət hər zaman onları dəstəkləyir. Azərbaycanda sahibkarlığın inkişafı geniş vüsət alıb və ölkəmizin gələcək, uzunmüddətli, dayanıqlı inkişafı böyük dərəcədə sahibkarların fəaliyyəti ilə bağlıdır. Azərbaycanda indi sahibkarlar sinfi yaradılıb. Sahibkarlar müxtəlif sahələrdə - həm istehsalda, xidmət və ticarət sektorlarında çox fəal işləyirlər. Əlbəttə ki, dövlət onlara həm siyasi dəstək, həm də maliyyə dəstəyi verir. Bildiyiniz kimi, güzəştli şərtlərlə 2 milyard manatdan çox kreditlər verilmişdir. Ağır günlərdə, bədbəxt hadisə baş verdikdə dövlət hər zaman onların yanındadır və onların yanında olacaqdır"*, - deyə Prezident İlham Əliyev bildirdi.

Artıq Prezident İlham Əliyev bu hadisə ilə bağlı iki sərəncam imzalayıb. Dövlət başçısının 28 mart tarixli sərəncamına əsasən baş vermiş hadisənin səbəblərini araşdırmaq və nəticələrini aradan qaldırmaq məqsədilə komissiya yaradılıb. Prezident İlham Əliyevin martın 29-da imzaladığı növbəti sərəncamla isə həmin ticarət mərkəzində baş vermiş yanğın nəticəsində zərər çəkmiş sahibkarlara maddi yardım göstərilməsi məqsədilə 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan ilkin olaraq 3 milyon manat ayrılıb.

Prezidentin bu məsələni operativ surətdə müşavirədə müzakirəyə çıxarması və həmin sahibkarlara dövlət yardımının təşkil edilməsi göstərdi ki, dövlət başçısı 2003-cü ildə səlahiyyətlərinə başlayarkən "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" deyə verdiyi vədi şərəflə yerinə yetirir. Azərbaycan dövləti bu dəfə də öz vətəndaşını darda qoymadı və problemlərinin ağırlıqlarını öz çiyinlərinə götürdü.

Zərər çəkmiş sahibkarlara dövlət dəstəyinin verilməsi, eyni zamanda, həyata keçirilən sosial siyasətin tərkib hissəsidir. Azərbaycan dövlətinin sosial qayğısı cəmiyyətin bütün təbəqələrini əhatə edir. Bu mənada Prezident İlham Əliyevin zərər çəkən sahibkarların probleminə çevik reaksiyası dövlət başçısının öz vətəndaşının sosial müdafiəsinə olan həssas diqqətinin növbəti təcəssümü kimi yadda qaldı.

Lakin ən əsası mənəvi yardımdır. Azərbaycan rəhbərliyi bu hadisəyə operativ və çevik reaksiya verməklə zərərçəkənlərin taleyinə biganə qalmadığını nümayiş etdirdi. Cənab Prezidentin sərəncamı ilə komissiyanın yaradılması, məsul şəxslərin birbaşa hadisə yerində olmaları bir daha göstərdi ki, Azərbaycan hakimiyyəti çətin vəziyyətlərdə öz vətəndaşını tək qoymur, maddi və mənəvi dəstəyini əsirgəmir.

***Söhbəti yazdı:***
***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## İşçi qrupu zərər çəkmiş 441 sahibkarla görüşüb

Bakının Nizami rayonu ərazisindəki ticarət mərkəzində baş vermiş yanğın nəticəsində zərər çəkmiş sahibkarlara maddi yardımın göstərilməsi barədə Prezident İlham Əliyevin sərəncamının icrasının təmin edilməsi məqsədilə İqtisadiyyat Nazirliyində yaradılmış işçi qrupu tərəfindən sahibkarların fərdi qəbulu başa çatdırılıb.

29-31 mart tarixlərində işçi qrupu tərəfindən keçirilən qəbulda 441 sahibkar fərdi qaydada qəbul edilib. Qəbul zamanı 381 sahibkar 15 milyon manatadək İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondunun vəsaitləri hesabına güzəştli kreditə ehtiyacının olduğunu bildirib və artıq sahibkarlarla işlərə başlanılıb. Məlumat üçün qeyd edək ki, İqtisadiyyat Nazirliyi tərəfindən ticarət mərkəzləri ilə aparılmış müzakirələr nəticəsində əldə edilmiş razılığa əsasən, sahibkarlara 5 ay icarə haqqı ödənilməmək şərtilə Bakı şəhərinin müxtəlif ərazilərində yerləşən 8 ticarət mərkəzində ümumi sahəsi 30 min $m^2$-dən çox olan 700-dən artıq ticarət obyekti təklif olunub. Bu təkliflərə uyğun olaraq, 408 sahibkar ümumi sahəsi 12,4 min $m^2$ olan ticarət obyektlərinə ehtiyacı barədə müraciət edib və bu istiqamətdə işlərə başlanılıb.

İqtisadiyyat Nazirliyindən verilən məlumata görə, zərər çəkmiş sahibkarlar müraciət etdiyi halda, əlavə qəbul təşkil olunacaq.

***Fərizə ƏHMƏDOVA,***
***"Azərbaycan"***

Əvvəli 1-ci səh.





# Zəfərin Aprel zirvəsi

## Cocuq Mərcanlıdan indi QARABAĞ daha aydın görünür!









2016-cı ilin Aprel döyüşləri nəticəsində Cocuq Mərcanlıda kəndin bərpasına əlverişli şərait yarandı. Dövlət başçısının işğaldan azad olunmuş ərazidə yaşayışın bərpası barədə ilk tarixi sərəncamına və müvafiq tapşırıqlarına uyğun olaraq çox qısa müddətdə - cəmi 2 ayda burada 50 evdən ibarət müasir qəsəbə salındı! Məktəb binası tikildi, infrastruktur yaradıldı, tarixi Şuşa məscidinin oxşarı olan məscid inşa edildi, 9 km uzunluğunda yol çəkildi. Sonra ölkə başçısının göstərişi ilə daha 100 ev və digər sosial obyektlər tikilərək məcburi köçkünlərin, Cocuq Mərcanlı kəndinin sakinlərinin istifadəsinə verildi!

Erməni vandallarının 5 aya darmadağın etdikləri Cocuq Mərcanlını Azərbaycan Prezidenti cənab İlham Əliyev 2 aya yenidən qurdu.

Beləliklə, Cocuq Mərcanlı hamının həsrətlə gözlədiyi Böyük Qayıdışın başlanğıc rəmzinə çevrildi!

Qloballaşmış, müasirləşmiş və sivilləşmiş dünyanın qeyri-insani qüsurlarından biri də budur! Əgər bu gün bəzi dövlətlər və onların rəhbərləri ölkəmizə qarşı qısqanclıq edirlərsə, (təəssüflər olsun ki, beləlləri mövcuddur) bunun bir səbəbi var, o da möhtərəm Prezident cənab İlham Əliyevin son 15 ildə misli görünməmiş dərəcədə əldə etdiyi siyasi, sosial-iqtisadi nailiyyətlər, dövlət-xalq birliyi və bunun nəticəsi olaraq ictimai-siyasi sabitlik, insanların həyat tərzinin davamlı yaxşılaşdırılmasıdır.

Cəmi 4 gün davam edən aprel qələbəsi təkcə düşmənə deyil, bütün dünyaya Azərbaycan Ordusunun gücünü, müasir hərbi silahlarla təchiz edildiyini, habelə üstün döyüş texnikasına, ciddi təlim keçmiş, mübariz heyətə malik olduğunu göstərdi. Düşmənin 22 il ərzində "möhkəm" istehkam qurduğu Lələtəpə yüksəkliyi qüdrətli ordumuzun bir həmləsi ilə geri qaytarıldı!

Aprel döyüşləri, həmçinin indiyədək 20 min nəfərdən çox şəhid verən xalqımızın döyüş əzmini və torpaqları işğaldan azad etmək üçün yeni qurbanlara hazır olduğunu da nümayiş etdirdi!

Mənim üçün Aprel döyüşlərinin nəticəsi olaraq Lələtəpə yüksəkliyinin azad olması başqa bir məna da daşıyır. Belə ki, bütün qaçqın və məcburi köçkünlər kimi mən də uzun müddət ziyarət edə bilmədiyim rəhmətlik atamın məzarına və dünyaya göz açdığım kəndə - Böyük Mərcanlıya daha da yaxınlaşdım!

Mən cənab Prezident İlham Əliyevin Cocuq Mərcanlı kəndinin bərpası ilə əlaqədar imzaladığı sərəncamı və şəxsi tapşırığı tez bir zamanda icra etmək üçün demək olar ki, hər gün orada olurdum və bu zaman bir sıra hadisələrin şahidinə çevrildim:

- Cənab Prezidentin tapşırığı ilə xarici dövlətlərin ölkəmizə akkreditə olunmuş səfirlərini və nüfuzlu beynəlxalq təşkilatların nümayəndələrini Cocuq Mərcanlı kəndinin dağıdılmış vəziyyəti ilə tanış etmək üçün rəsmi səfər təşkil olundu. Diplomatlar və digər qonaqlar kəndin ermənilər tərəfindən 3-4 aya vəhşicəsinə necə xarabalığa çevrildiyini öz gözləri ilə görüb təəccüblərini gizlədə bilmədilər. Həmin səfərdə iştirak edən Rusiya Federasiyasının Azərbaycan Respublikasındakı keçmiş səfiri Vladimir Doroxin AzTV-yə müsahibəsində demişdir: "Biz adətən iş otağımızda işləyir, məlumat toplayırıq. Gözlərimizlə gördüklərimiz isə bizi dəhşətə gətirir".

- Məcburi köçkün həyatına dözməyib ulu öndər Heydər Əliyev tərəfindən uğurlu Horadiz əməliyyatından sonra öz kəndinə qayıdaraq 22 il atəş altında, təhlükəli şəraitdə yaşayan Oqtay Həziyev və onun ailəsi ilə tanış oldum. Oqtay Həziyev nümunəsi uzun müddət bəzi beynəlxalq təşkilatların verdiyi təxribat xarakterli sualları alt-üst etmişdi. Onlar həmişə görüşlərdə xüsusi maraqlanırdılar ki, məcburi köçkünlər torpaqlar azad olandan sonra geriyə qayıdacaqlarmı? Oqtay Azərbaycan vətəndaşının torpağına, vətəninə, dövlətinə, xüsusən doğulduğu yerə sıx bağlılığını bütün dünyaya nümayiş etdirdi!

- Cocuq Mərcanlı sakinləri kənd azad edildikdən dərhal sonra ailəlikcə gələrək dağıdılmış evlərinin həyətində, göy çəmənlikdə süfrə salıb quru torpaqda əyləşərək yüksək əhvali-ruhiyyə ilə çörək yeyirdilər.

- Çox maraqlı bir fakt məndə qürur hissi oyatdı: ölkəmizin müxtəlif bölgələrindən - qaçqın, məcburi köçkün olmayan yerli əhalidən də müxtəlif ailələr gəlib Cocuq Mərcanlı sakinləri kimi, yerdə süfrə salıb o torpaqlarda yemək yeyib, çörək kəsirdilər.

- Qəsəbənin tikinti işlərini aparan icraçılar (rəhbər işçilər) və fəhlələr gecə-gündüz işləyirdilər. Nə yorulmaq bilirdilər, nə də dincəlmək!

- Qəsəbə tikilib başa çatmışdı və Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev qəsəbənin rəsmi açılışından sonra müdafiə naziri cənab Zakir Həsənov və qərargah rəisi cənab Nəcməddin Sadıqovla təmas xəttində gələcək planları müzakirə edirdilər. Mən söhbət əsnasında dedim ki, dayandığımız yerdən dünyaya göz açdığım kəndə qədər 9 km, atamın qəbrinə isə 7 km qalıb. Cənab Prezident dönüb Zakir Həsənov və Nəcməddin Sadıqova tərəf baxdı və heç bir söz demədi, ancaq müdafiə naziri Zakir Həsənov sanki cənab Ali Baş Komandanın baxışlarını oxudu və o, "2 saata o kəndi də azad edərik" deyə cavab verdi!

- Cocuq Mərcanlı kəndi nəinki ölkəmizdə, hətta, dünyada dillər əzbərinə çevrildi.

- Heç yadımdan çıxmır: rəhmətlik anam 2005-ci ildə dünyasını dəyişməzdən 3 gün əvvəl məni çağıraraq bir xahiş etdi: "Ömrümə 2-3 gün qalıb, səndən bir xahişim var, mən dünyamı dəyişəndə, apar yaşadığımız kənddə atanla bir yerdə dəfn et". Dedim: "Ana, sən ki dünya görmüş insansan, bilirsən ki, bu, mümkün deyil!" O isə "heç olmasa vəd ver ki, mən rahat gedim" söylədi. Dedim: "Bunu edə bilmərəm, ancaq söz verirəm ki, torpaqlar azad olanda buna əməl edəcəm!"

Cənab Prezident Cocuq Mərcanlını bərpa edəndə bu əminlik məndə daha da möhkəmləndi. Bu da Azərbaycan anasının ana torpağa olan məhəbbəti, bağlılığıdır!

- Görün bugünkü dünyada nələr baş verir: mən elə bilirdim ki, yalnız insanlar qaçqın və məcburi köçkün olar, sən demə, məzar da qaçqın və məcburi köçkün olarmış!

- Cocuq Mərcanlının işğaldan azad və bərpa olması Şuşaya yol açıb, o kəndə gedərkən yol göstəricisində yazılıb: "Şuşaya gedən yol". Həmin gün çox da uzaqda deyil!

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə 1993-cü ilin dekabr ayında başlamış və 1994-cü il yanvarın 6-na kimi davam etmiş uğurlu Horadiz əməliyyatı nəticəsində 21 min hektar ərazi, o cümlədən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi işğaldan azad edilmişdi.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə cəmi 4 gün davam edən 2016-cı il Aprel döyüşləri nəticəsində 10 min hektarlarla ərazi düşmən tapdağından azad edildi. Buna sadəcə torpaqların azad edilməsi kimi baxmaq doğru deyil! Bu, 22 il davam edən atəşkəs rejimində ilk dəfə olaraq şərəfli Azərbaycan Ordusu tərəfindən torpaqların geri qaytarılması faktıdır.

Ümummilli lider Heydər Əliyev və Prezident İlham Əliyev dəfələrlə qeyd ediblər ki, torpaqlar işğaldan azad olunandan sonra bütün yaşayış məntəqələri bərpa olunacaq, orada daha gözəl evlər tikiləcək, yaşayış məntəqələri salınacaq!

1994-cü ildə Füzuli rayonunun Horadiz qəsəbəsi, habelə 20 kəndi işğaldan azad edilən kimi ulu öndərin tapşırığı ilə böyük bərpa işlərinə başlanıldı, əhali öz evlərinə qaytarıldı.

Cənab İlham Əliyev bərpa işlərini məharətlə başa çatdırdı. Hətta Horadiz qəsəbəsi böyüyərək, müasirləşərək şəhər statusunu aldı.

1994-cü ildə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi də işğaldan azad edilmişdi. Lakin burada yaşamaq təhlükəli olduğuna görə sakinlərin qaytarılması mümkün olmamışdı.

2016-cı ilin Aprel döyüşləri nəticəsində Cocuq Mərcanlıda kəndin bərpasına əlverişli şərait yarandı. Dövlət başçısının işğaldan azad olunmuş ərazidə yaşayışın bərpası barədə ilk tarixi sərəncamına və müvafiq tapşırıqlarına uyğun olaraq çox qısa müddətdə - cəmi 2 ayda burada 50 evdən ibarət müasir qəsəbə salındı! Məktəb binası tikildi, infrastruktur yaradıldı, tarixi Şuşa məscidinin oxşarı olan məscid inşa edildi, 9 km uzunluğunda yol çəkildi. Sonra ölkə başçısının göstərişi ilə daha 100 ev və digər sosial obyektlər tikilərək məcburi köçkünlərin, Cocuq Mərcanlı kəndinin sakinlərinin istifadəsinə verildi!

Erməni vandallarının 5 aya darmadağın etdikləri Cocuq Mərcanlını Azərbaycan Prezidenti cənab İlham Əliyev 2 aya yenidən qurdu.

Beləliklə, Cocuq Mərcanlı hamının həsrətlə gözlədiyi Böyük Qayıdışın başlanğıc rəmzinə çevrildi!

Onu da qeyd edim ki, Aprel qələbəsi sayəsində, həmçinin Tərtər rayonunun (keçmiş Ağdərənin) Talış kəndi ətrafındakı yüksəkliklər və 10 min hektarlarla ərazisi də işğaldan azad olundu. Burada - Şıxarx kəndi ərazisində 1174 məcburi köçkün ailəsi üçün müasir yaşayış kompleksi inşa edildi. Həmişə olduğu kimi, hər iki qəsəbənin açılış tədbirlərində cənab Prezident şəxsən iştirak etdi!

İşğaldan azad olunmuş ərazilərdə qısa müddətdə iki yeni qəsəbənin salınması, burada yaşayışın bərpa edilməsi Azərbaycan dövlətinin seçdiyi tarixi yoldan heç zaman dönməyəcəyinin bariz təsdiqidir! Bu, əsası ulu öndər tərəfindən qoyulan azərbaycançılıq fəlsəfəsinə, ali siyasi xəttə bir daha sadiqlik nümunəsidir!

Hər dəfə danışıqlar masasında min bir bəhanə ilə konkret müzakirələrdən yayınan, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllini süni şəkildə uzadan, özünü qalib kimi göstərməyə çalışan Ermənistan rəhbərliyinə Aprel zəfəri tutarlı şillə oldu! Onun canına vahimə, vəlvələ saldı! Düşmən nəhayət hiss etdi ki, onun qarşısında öz Ali Baş Komandanının əmrinə daim müntəzir, torpaqları işğaldan hər an azad etmək əzminə malik güclü, modern silahlarla təchiz edilmiş qüdrətli Azərbaycan Ordusu var!






Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin 2016-cı il noyabrın 12-də Füzuli rayonu ərazisində cəbhə bölgəsində hərbi qulluqçularla görüşü zamanı dediyi sözləri bir daha diqqətinizə çatdırmaq istərdim: *"Biz öz torpağımızdayıq. Heç bir ölkənin torpağında gözümüz yoxdur. Ancaq biz öz torpağımızda ikinci erməni dövlətinin yaranmasına heç vaxt imkan verməyəcəyik. Aprel döyüşləri bunu bir daha sübut etdi.*

*Aprel döyüşləri növbəti tarixi qələbədir. Dünya bir daha gördü ki, Azərbaycan Ermənistanın işğalçılıq siyasəti ilə heç vaxt barışmayacaq. Biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik və edəcəyik.*

*Lələtəpə əməliyyatı bizim qəhrəmanlıq rəmzimizdir. Lələtəpə tarixə düşdü. Əgər erməni silahlı qüvvələri Aprel döyüşlərindən düzgün nəticə çıxarmasalar, gələcəkdə Lələtəpə əməliyyatı kimi bir çox uğurlu əməliyyatlar olacaqdır!"*

Çox keçmədi cənab Prezident öz vədinə əməl edərək ermənilərin sinəsinə yeni bir "dağ" çəkdi!

Şərur rayonunun Günnüt kəndinin yüksəkliyini də işğaldan azad etdi!

İllər ötəcək, yeni nəsillər tarix dərsliklərindən Aprel qələbəsi barədə məlumatları diqqətlə, böyük həvəslə öyrənəcək, bu qələbənin qəhrəmanlarını daim ürəklərində, qəlblərində yaşadacaqlar!

Aprel döyüşləri xalqımızın vətənpərvərlik ruhunu, qələbəyə inamını daha da möhkəmləndirdi, doğma ata-baba yurduna dönmək arzusunu alovlandırdı! Həmin günlərdə minlərlə sıravi vətəndaşımız cəbhə bölgəsinə axın etdi, on minlərlə gəncimiz, ehtiyatda olan əsgər və zabitlər, hətta keçmiş döyüşçülər çağırış məntəqələrinə gələrək cəbhəyə göndərilmələrini israrla xahiş etdilər!

Bu, xalqımızın əsrlərlə formalaşmış Vətənə, torpağa məhəbbətindən, yurd sevgisindən, doğulduğu yerə ülvi, qırılmaz tellərlə bağlılığından, mənəviyyatından irəli gəlir! Bu düşüncə tərzini isə dəyişmək mümkün deyildir!

Beynəlxalq təşkilatların təmsilçilərinin, xarici ölkələrin nüfuzlu nümayəndə heyətlərinin məcburi köçkünlər üçün yeni salınmış qəsəbələrə səfəri və doğma yurdlarından didərgin salınmış vətəndaşlarımızla söhbətləri zamanı hamımız bunun dəfələrlə şahidi olmuşuq. Ölkəmizə gələn bəzi əcnəbi qonaqların məcburi köçkünlərə ünvanladıqları "Sizin üçün bu cür gözəl şərait yaradılıb, öz yurdunuza qayıtmaq istərdinizmi?" kimi təxribat xarakterli suallarına cavanlı-ahıllı hər kəs belə cavab vermişdir: "Sag olsun dövlətimiz, Prezidentimiz ki, bizi ağır şəraitdən belə ağ günlərə çıxarıblar! Ancaq biz indiyə kimi dözmüşük və yalnız bir arzu ilə yaşamışıq. Geriyə, öz evimizə dönmək arzusu ilə. Biz ata-baba yurdunda çadırda yaşamağa razıyıq. Təki torpaqlar azad olsun! "

Bax, budur xalqımızın torpağına, soyuna, kökünə bağlılığı, mənəviyyatı!

Xalqımızın ümummilli lideri Heydər Əliyev ən yüksək toplantılarda, bütün tədbirlərdə həmişə birmənalı olaraq qeyd edirdi ki, Azərbaycan torpaqların işğal faktı ilə heç zaman barışmayacaq! Azərbaycan öz ərazi bütövlüyünü nəyin bahasına olursa olsun, bərpa edəcək!

Ulu öndərin müəyyən etdiyi bu ali siyasi xətti qətiyyətlə, böyük məharətlə davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev istər ölkəmizdə, istərsə də xaricdə keçirilən bütün tədbirlərdə, dövlət başçıları ilə görüşlərdə bir qayda olaraq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini, torpaqlarımızın işğalı faktını ön plana çəkir, Azərbaycanın ərazi bütövlüyünün bərpasında israrlı olduğunu qətiyyətlə bəyan edir.

Aprel döyüşləri öz xalqının taleyi ilə oynayan Ermənistan rəhbərliyinə bir görk, tarixi dərs oldu ki, lazımi nəticə çıxarsınlar. Təəssüflər olsun ki, onlar bu gün də əvvəllər buraxdıqları kobud səhvləri və cinayətləri təkrar edirlər.

Cənab Prezident Ermənistan rəhbərliyinə dəfələrlə xəbərdarlıq edirdi ki, Azərbaycan istənilən zaman hərbi güclə öz torpaqlarını işğaldan azad edə bilər və bunun üçün güclü ordumuz var! Lakin Azərbaycan qan tökülməsini istəmir, danışıqlar yolu ilə məsələnin həllinə tərəfdardır. Əgər danışıqlar nəticə verməsə, Azərbaycan istənilən yolla öz ərazi bütövlüyünü bərpa edəcəkdir.

Ermənistan rəhbərliyi isə bu xəbərdarlıqlara məhəl qoymurdu, 1990-cı illərin ab-havası ilə yaşayırdı, Azərbaycanın nəhəng siyasi, iqtisadi uğurlarını, hərbi qüdrətini görmək istəmirdi. İnanmırdı və gözləmirdi ki, Azərbaycan sözlə dediyini ona güc hesabına da başa salacaq!

Aprel döyüşləri Azərbaycan Prezidentinin dəfələrlə dediyi sözlərin əməli ifadəsi oldu! Siyasi lider öz liderlik məharətini düşmənə, onun havadarlarına, bütün dünyaya nümayiş etdirdi. Məhz buna görə də Aprel zəfəri ilk növbədə siyasi liderin qətiyyətinin təntənəsidir!

Cənab Prezident deyir və dediyi sözə də əməl edir!

Fikir verin, Aprel döyüşlərindən sonra heç bir ölkə, heç kəs Azərbaycanı atdığı bu addıma görə qınamadı! Çünki hamıya gün kimi aydın idi ki, Azərbaycan haqq yolundadır, 24 ildir ki, mübarizə aparır və ədalətin bərpa olunacağı günü səbirlə, təmkinlə gözləyir.

Respublikamızın hər yerində olduğu kimi, Böyük Qayıdışın başlanğıcı sayılan Cocuq Mərcanlı kəndində də xalqımızın qədim el bayramı olan Novruz böyük sevinc və fərəhlə qeyd olundu. Novruza həsr olunan bayram proqramını 20 mart 2019-cu ildə ilk dəfə AzTV canlı olaraq Cocuq Mərcanlıdan yayımladı. "Qarabağ şikəstəsi" ilə start götürən möhtəşəm bayram tədbirində kənd sakinlərindən başqa, Azərbaycanın digər bölgələrindən və xaricdən gələn insanlar, hərbi hissənin əsgərləri, tanınmış incəsənət ustaları iştirak etdilər.

İşğaldan azad olunmuş ilk kənd - Cocuq Mərcanlı, işğaldan azad və bərpa olunmuş kəndə qayıdan ilk sakinlər və azad olunmuş kənddə möhtəşəm Novruz bayramı!

Bu da ermənilərə növbəti göz dağı!

Biz hamımız Aprel döyüşləri günləri dövlət idarəçiliyində çox mühüm və vacib məqamlardan biri olan Prezident-Xalq-Ordu birliyinin də şahidi olduq. Bu birlik dar gündə, çətin məqamda, dövlətin taleyi təhlükə qarşısında qalanda, düşmənlə üz-üzə dayananda ən etibarlı vasitədir!

1993-cü ildə ulu öndərin çağırışına əsasən minlərlə insanın Horadiz əməliyyatına qatılması, düşmənə layiqli cavabın verilməsi, 1994-1995-ci illərdə Azərbaycanın başının üstünü qara buludlar alanda rəhbərin xalqa müraciəti ilə minlərlə vətənsevər insanın Prezident Sarayının qarşısına toplanması, dövləti müdafiə etməsi Xalq-Rəhbər birliyinin tarixə qovuşmuş şanlı səhifələridir!

- *Aprel döyüşlərində bu birliyə Ordu da əlavə olunmaqla, daha da genişləndi, Prezident-Xalq-Ordu birliyinə çevrildi və əzəmətli qüvvə nümayiş olundu!*
- *Əlbəttə, "İrəli!" əmrini yalnız öz xalqına və orduya etibar edən Ali Baş Komandan verməyə qadirdir!*
- *Döyüş meydanına qələbə əzmi ilə ancaq öz Ali Baş Komandanına və xalqına sadiq ordu atıla bilər!*
- *Yalnız öz Prezidentinə inanan və orduya güvənən xalq mətin və iradəli olur!*
- *Xalqına arxalanan Prezidentimiz, ölkə başçımıza inanan qədirbilən xalqımız və torpaqlarımızı hər an düşmən tapdağından azad etməyə qadir yenilməz ordumuz var!*
- *Qürur hissi ilə deyə bilərik ki, ölkəmizdə Prezident-Xalq-Ordu birliyi mövcuddur və bu vəhdət sarsılmazdır!*

Son aylarda sosial təminatla əlaqədar cənab Prezidentin imzaladığı fərman və sərəncamlar bir daha onu göstərdi ki, Prezident xalqına xidmət edir, xalqının güzəranının yaxşılaşdırılması onun gündəlik prioritet məsələsidir, cənab Prezident hər zaman vurğulamışdır: "Neft kapitalı insan kapitalına çevrilməlidir". O, bu vədinə də əməl etdi.

Aprel zəfərini Azərbaycan xalqına Ali Baş Komandamız cənab İlham Əliyev yaşatdı!

Ona ən dəqiq və doğru qiyməti də möhtərəm İlham Əliyev verib və bu zəfəri "Azərbaycanın hərb sənəti tarixinə yazılan qızıl səhifə" adlandırıb!

Bu gün qüdrətli ordumuzun qəhrəman əsgər və zabitləri, şəhid balalarımızın hünəri ilə qazanılan Aprel qələbəsi hər bir azərbaycanlıda haqlı qürur və iftixar hissi doğurur!

Biz hamımız Ali Baş Komandanın rəhbərliyi ilə qazanılan zəfərlə daim fəxr edirik və edəcəyik!

Qeyd edim ki, Aprel qələbəsini daim yaddaşlarda yaşatmaq üçün 2017-ci ildə Dövlətqaçqınkomla "Azərbaycan" qəzeti birgə layihə əsasında "İlham Əliyev bizi Cocuq Mərcanlıya qaytardı" adlı xüsusi kitab hazırlayıb nəşr etdirdi, habelə televiziya filmi çəkildi.

Atalar gözəl deyib: "Birlik olmayan yerdə dirilik olmaz". Məhz bu birliyin nəticəsidir ki, ölkəmizdə möhkəm sabitlik, əmin-amanlıq bərqərar olunub! Bu, böyük nemətdir. Baxın, son 15 il ərzində dünyada hansı proseslər baş verir, Yaxın Şərqdə, MDB məkanında, regionda çox təhlükəli proseslər gedir, dünyada münaqişə, müharibə ocaqlarının sayı ilbəil artır, hər gün minlərlə dinc insan, qadın, uşaq, qoca məhv edilir, öz yurdundan qovulur. Hətta bəzi ölkələr tamamilə viran qoyulub!

Bütün bu təhlükələrin əhatəsində Azərbaycan öz Prezidentinin müstəqil dünyəvi siyasəti sayəsində dünyada gedən riskli proseslərdən özünü qoruyaraq dinamik inkişaf yolu ilə inamla irəliləyir!

Çünki bu siyasət xalqa xidmət, ölkəni güclü dövlətə çevirmək siyasətidir!

*2016-cı ilin Aprel zəfəri bizi Aprel zirvəsinə ucaltdı!*

*Bu zirvədən indi QARABAĞ aydın görünür!*

*İlham Əliyevin rəhbərliyi ilə bu zirvələrdə Azərbaycan bayrağının ucaldılacağı gün uzaqda deyil!*

***Əli HƏSƏNOV,***
***Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini***

◆ Döyüş səngərindən reportaj





12 noyabr, 2016. Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Lələtəpədə döyüş mövqelərində



# Lələtəpədən Ali Baş Komandana əsgər raportu:

# "Hücuma və qələbəyə tam hazırıq"

*Əvvəli 1-ci səh.*

Burada yaradılan şərait də tam başqadır. Təkcə bir faktı söyləmək yetər. İşğaldan azad edilərkən Lələtəpəyə doğru yalnız çığırlarla qalxmaq mümkün idi. İndi bu yüksəkliyə istənilən texnika rahat hərəkət edə bilir. Hərbçilərimiz ən müasir hərbi texnika ilə, silah-sursatla təchiz ediliblər.

Tağım komandiri zabit İlkin Hüseynov deyir ki, düşmən hər zaman ayıq-sayıqlıqla izlənilir. Müşahidə məntəqəsində düşmənin bir hərəkəti belə gözdən yayınmır: "Düşməni daim nəzarət altında saxlayırıq. Şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığı yüksək səviyyədədir. Əsgərdə mənəvi-psixoloji hazırlıq yetərincə olmasa, o, döyüş hazırlığına da tam yiyələnə bilməz. Bu amillər bir-birini tamamlamalıdır. Biz bu gün bütün hazırlıqlarımızı müharibə qanunlarına uyğun olaraq qurur və düşmənlə üzbəüz mövqelərdə xidmət apardığımızı yaddan çıxartmırıq".

Aprel döyüşlərində hərbi hissənin bir neçə igid oğlunun qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə yüksəldiyini söyləyən zabitin sözlərinə görə, onların göstərdikləri şücaət hər bir Azərbaycan hərbçisinin döyüş əzmini gücləndirdi. Bu gün Lələtəpə yüksəkliyi etibarlı əllərdədir. Burada xidmət edən hər bir əsgər istənilən döyüş tapşırığını yerinə yetirməyə qadirdir.

## Kazarma, anbar, mətbəx, hamam kompleksi yüksək səviyyədədir

Buradakı səngərlərimizlə düşmən postu arasında məsafə çox qısadır. Ancaq buna baxmayaraq, səngərlər effektiv müdafiə sistemi, yüksək səviyyəli qurğular ilə təmin edilib. Bu strateji yüksəklikdə belə bir müdafiə sisteminin yaradılması düşmənin hərəkət imkanlarını xeyli məhdudlaşdırır, istənilən təxribatlara adekvat cavab vermək imkanı yaradır. Şəxsi heyətin sosial yaşayış şəraiti isə müasir tələblərə cavab verir.

Əsgər kazarması ilə tanış oluruq. Şəxsi heyətin yüksək səliqə-sahmanı, yataq dəstlərinin təmizliyi xoş təəssürat doğurur. Postdan qayıdan əsgərlər dincəlir, istirahətlərini səmərəli keçirirlər. Əsgərlərin növbəlilik əsasında dincəldikləri hərbi kazarma normal şəraiti olan yataqxananı xatırladır. Burada anbar, mətbəx, hamam kompleksi və sanitariya qovşağı da mövcuddur. Məhz bu yüksəklikdə yaradılan şərait Azərbaycan əsgərinin əhvali-ruhiyyəsini və döyüş əzmini daim yüksəldir.

## Səngər qələbə üçün müvəqqəti dayanacaqdır

Kazarma ilə tanışlıqdan sonra bayıra çıxıb tağım komandiri ilə postlara tərəf hərəkət etdik. Döyüş tapşırığını yerinə yetirən 19 yaşlı əsgər Elvin Zamanlı 9 aydır hərbi xidmətdədir. Şəki şəhərindən həqiqi hərbi xidmətə çağırılan əsgər Azərbaycan Dövlət Aqrar Universitetinin məzunudur. Hərbi xidməti başa vurmağına 3 ay qalan Elvin burada xidmət etməyi özünə şərəf bilir:

"Hər bir əsgər istəyər ki, Lələtəpədə xidmət keçsin. Çünki bura hər birimizin and yeridir. Üç il öncə zabit və əsgərlərimizin qəhrəmanlığı sayəsində Lələtəpə yüksəkliyində bayrağımız dalğalandı. Mən də hər an onlar kimi qəhrəmanlıq göstərməyə hazıram".

Digər postda ayıq-sayıq dayanan döyüş növbətçisi əsgər Qəhrəman Məmmədov da 9 aydır bu hərbi hissədə xidmət edir. Şəmkir rayonundan olan əsgər evə adına layiq şəkildə dönmək istəyir: "Bu yüksəklik uğrunda mənim əsgər qardaşlarım savaşaraq şəhid olublar. Biz onların yolu ilə gedirik. Deyirlər ki, səngər qələbə üçün müvəqqəti dayanacaqdır. Biz də bu müvəqqəti dayanacaqdan Ali Baş Komandanın hücum əmrini qətiyyətlə yerinə yetirməyə hazırıq".

Döyüş növbətçisi Qismət Haqverdiyev bir an belə diqqətini yayındırmır. Deyir ki, hər hansısa diqqətsizlik düşmənin xeyrinə işləyə bilər. Ona görə də əsgər postda hər zaman ayıq-sayıq olmalıdır: "Nəinki komandirlər, bütün Azərbaycan xalqı bizə güvənir. Bu məsuliyyəti hiss edərək burada xidmət göstəririk. Hər zaman diqqətliyik və istənilən döyüş tapşırığını icra etməyə hazırıq".



























## "Şəhid olmağa deyil, qəhrəman olmağa gəlmişik"

Postlardan geri dönüb istirahətdə olan heyətin bir qrupu ilə çay süfrəsi ətrafında əyləşib söhbət edirik.

Zabit İlkin Hüseynov rabitə ilə bütün post başçıları ilə əlaqə yaradaraq məlumat alır və tapşırıqlarını verir. Deyir ki, ordunun gücü şəxsi heyətin ruh yüksəkliyindən asılıdır: "Bizim üçün burada yaradılan şərait Azərbaycan Ordusunun qüdrətinin göstəricisidir. Bunu qarşımızda dayanan düşmən əsgəri də yaxşı bilir və ona görə də hər an qorxu içindədirlər. Bir həmləmizə silahı atıb yenə qaçasıdırlar. Aprel döyüşlərindən sonra çox qorxu keçirirlər. Tağımın bütün şəxsi heyəti yüksək döyüş əzmindədir".

Əsgərlərdən Kamran Hüseynov (Gəncə şəhəri, 9 ay), Niyaməddin Cabbarov (Lerik rayonu, 9 ay), Cavid Muxtarov (Göranboy rayonu, 9 ay), İlkin Həsənov (Gəncə şəhəri, 9 ay) qəhrəman hərbi hissənin əsgərləri olduqları üçün qürur duyurlar.

Azərbaycan Texnologiya Universitetinin məzunu olan Cavid Muxtarovun təxris olunmasına az vaxt qalır. Əsgər deyir ki, Aprel döyüşlərində tarix yazan hərbi hissədə qulluq etməsi onun üçün ikiqat fəxrdir: "Xidmət etdiyim hərbi hissənin zabitləri, gizirləri, əsgərləri əsl qəhrəmanlıq göstəriblər və Ali Baş Komandan İlham Əliyev həmin hərbçiləri mükafatlandırıb. Evə qayıtmağıma az vaxt qalsa da, hələ də ümidliyəm ki, biz də qəhrəmanlar kimi ordudan tərxis oluna bilərik. İstəyirəm ki, Ali Baş Komandan hücum əmri versin və önümüzdə hər an vahimə içərisində dayanan erməni əsgərini torpaqlarımızdan qovub çıxaraq".

Digər əsgərlər də Cavidlə həmfikirdirlər. Kamran deyir ki, tək arzuları səngərdən qalxıb düşmən üzərinə yerimək, onları əzib keçməkdir. "Düzdür, şəhidlik ölməzlik zirvəsidir. Amma bu gün şəhid olmaqdan çox, qalib gəlmək, qəhrəman, qazi olmaq üçün savaşmalıyıq. Vətənin bizə oğul deməsi üçün döyüşməliyik və buna hər an hazırıq".

Düşmənlə ən yaxın məsafədəki səngərdə dayanan məğrur Azərbaycan əsgərinin böyük ruh yüksəkliyi, döyüş əzminin şahidi olmaq həqiqətən qürurvericidir. Elə bu xoş təəssüratlarla hərbçilərimizlə sağollaşıb hərbi hissəyə yollanırıq.

## Zəngin qida rasionu var, naharda ətsiz yemək yoxdur

Nahara az qalıb. Şəxsi heyət üçün hazırlanan nahar və ümumiyyətlə, qida rasionu ilə tanışlıq üçün birbaşa yeməkxanaya üz tuturuq.

Yeməkxanada səliqə-sahmana və təmizliyə tam riayət edilir. Bütün avadanlıqla təchiz edilmiş yeməkxanada mətbəx, təsərrüfat otaqları, eləcə də ərzaq və əşya anbarları yaradılıb. Digər hərbi hissələrdə olduğu kimi, burada da aşpazlar, yeməkxana və mətbəx işçiləri mülki şəxslərdir. Qidalanmada yeni sistem yaradılması hazırlanan yeməklərin və görülən işlərin keyfiyyətinə müsbət təsir göstərib. Hərbi hissələrdə şəxsi heyətin qidalanmasının keyfiyyətinin yaxşılaşdırılması və bişirilən xörəklərin çeşidinin artırılması məqsədilə milli yeməklərin hazırlanmasına üstünlük verilir. Burada ümumilikdə 40 nəfərə yaxın mülki şəxs çalışır. İşçilərin çoxu qadınlardır.

Günorta yeməyinin menyusu artıq vitrindədir. Sulu yeməklərdən noxud şorbası, quru yeməklərdən isə qızardılmış makaron mal əti ilə süfrəyə verilir. Bundan başqa, kələm-kök salatı, sarımsaq da menyuda var. Yeməkdən sonra istəsən alma yeyə, istəsən də onun qablaşdırılmış şirəsindən içə bilərsən.

Hərbi hissənin ərzaq xidməti rəisi zabit Şərafət Kərimov həftəlik qida rasionunu bizə təqdim edir. Şəxsi heyətin qida rasionu həqiqətən zəngindir.

Səhər yeməyində hər gün şirin çay, yağ, pendir və meyvə cemi verilir. Lakin bunlarla yanaşı, həftənin müxtəlif günlərində əsgərlərə qatı şəkərli süd, südlü düyü, südlü vermişel, qayğanaq və soyutma yumurta verilir.

Nahar yeməkləri də bir neçə çeşidlidir. Sulu yeməklərdən - küftə, borş, eləcə də noxud, lobya və mərci şorbası bişirilir. Quru yeməklərdən isə qovurulmuş ətlə makaron, çəkilmiş mal əti ilə qarabaşaq, düyü mal əti ilə, həmçinin qazan kotleti, arpa sıyığı ətlə, soyuq qəlyanaltı, səbzi plov və turşu qovurma plovları olur.

Şam yeməyində isə qiyməli qarabaşaq, bütöv arpa, makaron, bulğur sıyığı, kartof püresi ilə balıq konservi və qızardılmış balıq olur. Həmçinin hərbçilər mövsümi tərəvəz, kələm, vineqred, vitaminli salatlar, eləcə də su və bir nəfər üçün nəzərdə tutulmuş 200 qramlıq meyvə şirəsi ilə də təmin edilirlər.

## Adını hərb tariximizə yazdıran hərbi hissə

Nahardan sonra Aprel döyüşlərində böyük şücaət göstərərək adını hərb tariximizə qızıl hərflərlə yazdıran hərbi hissə ilə tanış oluruq.

Qalib gələn hərbi hissə öz qəhrəmanları ilə öyünür. Aprel döyüşlərində bir neçə şəhid verən hərbi hissənin 4 milli qəhrəmanı var. Bundan başqa, 9 hərbçi "Azərbaycan bayrağı" ordeni, 4 hərbçi "Vətən uğrunda", 26 hərbçi isə "İgidliyə görə" medalları ilə təltif olunub.

Hərbi hissənin ərazisində qərargah, kazarmalar, yeməkxana, tibb məntəqəsi, hərbi hissəyə təşrif buyuranlar üçün qonaq otaqları və hamam kompleksi mövcuddur. Hərbçilərin idmanın müxtəlif növləri ilə məşğul olmaları üçün idman şəhərciyi də salınıb. Qərargahın binasında Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğuna diqqət və qayğısını, hərbçilərlə görüşlərini əks etdirən və alayın Aprel döyüşlərində şəhid olmuş igidlərinin, eyni zamanda Azərbaycanın bütün milli qəhrəmanlarının fotolarından ibarət guşə yaradılıb. Ön cəbhədəki hərbi hissənin əsgər kazarmalarında səliqə-sahmana, təmizliyə söz ola bilməz. Burada hərbi qulluqçuların istirahəti üçün hər cür şərait var.

## Zəfər yürüşünə qadir ordu

Ön xəttdəki hərbi hissədə özünü göstərən əhvali-ruhiyyə və hərbi quruculuq prosesi böyük qürur hissi doğurur.

Bütün bunların şahidi olarkən insanda bir əminlik yaranır. Ali Baş Komandan İlham Əliyevin dediyi kimi, Azərbaycan Ordusunun yenilməz ordu olduğuna əmin olursan. Ən müasir hərbi texnikaları, yeni silahları və onlardan asanlıqla istifadə etməyi bacaran şəxsi heyətlə tanışlıqdan sonra bir daha Azərbaycan Ordusuna güvənib, inanırsan ki, işğal altındakı torpaqlarda, Dağlıq Qarabağda elə bir hərbi hədəf yoxdur ki, ordumuz onu məhv edə bilməsin.

Bu gün səngərdə bir amal, bir məqsəd - Böyük Qələbəyə nail olmaq üçün çiyin-çiyinə dayanan Azərbaycan hərbçisi Ali Baş Komandanın hücum əmrini uğurla yerinə yetirməyə qadirdir.

***Rəşad BAXŞƏLİYEV,***
***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Büdcə vəsaitləri ölkənin inkişafına və xalqın rifahına xidmət etməlidir

## Vüqar GÜLMƏMMƏDOV: "Dövlət başçısı tərəfindən verilmiş tapşırıqların yerinə yetirilməsi ilə bağlı maliyyə nəzarəti tədbirlərinin gücləndirilməsi fəaliyyətimizin əsas istiqamətidir"



Məlumdur ki, Prezident İlham Əliyevin birbaşa təşəbbüsü və rəhbərliyi ilə ölkənin sosial-iqtisadi sahələrində, o cümlədən onun əsas istiqaməti sayılan maliyyə sektorunda son dövrlər ardıcıl islahatlar həyata keçirilir və bu hesaba bir çox uğurlara nail olunur. Həmin uğurların əldə edilməsində isə digər məlum amillərlə yanaşı, dövlətin maliyyə resurslarının düzgün idarə olunması və səmərəli istifadəsinin, eləcə də həmin vəsaitlərin məqsədyönlü və qənaətlə xərclənməsinə nəzarətin gücləndirilməsinin əhəmiyyəti böyükdür. Maliyyə nəzarətinin gücləndirilməsinin əhəmiyyətini artıran həm də bu fəaliyyətin maliyyə intizamının gücləndirilməsinə, şəffaflığın və hesabatlığın təmin olunmasına, ən başlıcası, dövlətin iqtisadi siyasətinin həyata keçirilməsinə xidmət edən məqsədidir. Bütün ölkələrdə olduğu kimi, Azərbaycanda da həmin vacib məqsədin əsas təminatçısı Hesablama Palatasıdır.
2019-cu ilin ilk rübü arxada qalsa da, bu sahədə ötən il görülmüş işlər, aşkarlanmış faktlar və onların aradan qaldırılması üçün reallaşdırılan tədbirlər aktuallığını saxlayır. Odur ki, Hesablama Palatasının sədri Vüqar GÜLMƏMMƏDOVLA müsahibəyə də bundan başladıq.

**- Hesablama Palatasının 2018-ci ildəki fəaliyyəti əvvəlki illərdəkindən nə ilə fərqlənir?**

- 2018-ci il Hesablama Palatası üçün əlamətdar dövr hesab olunur. Ötən il kənar dövlət maliyyə nəzarəti orqanının fəaliyyətini tənzimləyən, beynəlxalq təcrübə və standartlara daha da yaxın olan yeni qanun qəbul edilmişdir. Bu, bizə artıq 2019-cu ilin İş Planının müəyyən olunmasında yeni yanaşma tətbiq etmək imkanı vermişdir. Həmçinin yeni qanunvericiliyə uyğun daxili metodoloji sənədlərin də yenilənməsinə ehtiyac yaranmışdır ki, bu istiqamətdə də işlər gücləndirilmişdir.

Keçən il Hesablama Palatası dövlət büdcəsinin icrası ilə bağlı daha ətraflı məlumat təqdim etmək, hesabatlılıq və şəffaflığı artırmaq məqsədilə geniş əlavə hesabat hazırlayaraq öz internet səhifəsində yerləşdirmişdir. Eyni zamanda, dövlət büdcəsinin layihəsinə və icrasına təqdim edilmiş rəylərin beynəlxalq standartların tələblərinə uyğunlaşdırılması işləri də davam etdirilmişdir. Bunlardan əlavə, dövlət maliyyə sisteminin bəzi sahələrində ilk dəfə nəzarət tədbirləri aparılmış, təhlil işlərinin əhatə dairəsi genişləndirilmiş, artıq və əsassız xərclənmiş vəsaitin qaytarılması istiqamətində işlərin əvvəlki illərə nisbətən gücləndirilməsi nəticəsində büdcəyə qaytarılmış vəsaitin məbləği 28,9 faiz artmışdır. Həmçinin Azərbaycan Respublikası Dövlət Neft Fondunun illik büdcəsinin icrası ilə bağlı ilk dəfə olaraq Palatanın rəyi hazırlanmış və təqdim olunmuşdur.

2018-ci ildə Hesablama Palatasının institusional və administrativ potensialının gücləndirilməsi üçün tvinninq layihəsi çərçivəsində kadrlardan səmərəli istifadə edilməsi üçün insan resurslarının idarə edilməsi və onların funksional potensialının yüksəldilməsi, ölkənin daxili normativ-hüquqi aktlarına və beynəlxalq audit standartlarına (ISSAI) uyğun maliyyə, uyğunluq və səmərəlilik auditlərinin həyata keçirilməsi və müvafiq hesabatlar hazırlamaq potensialının yüksəldilməsi üzrə mühüm tədbirlər həyata keçirilmişdir. Bu layihəyə həm də Hesablama Palatasının özünün funksiya və fəaliyyəti ilə əlaqədar Milli Məclis, audit aparılan təşkilatlar və KİV kimi daha dolğun məlumata malik maraqlı tərəflərlə effektiv kommunikasiya qurması istiqamətində tədbirlər daxildir.

Ötən il habelə müasir çağırışların tələblərinə uyğun informasiya texnologiyalarından geniş istifadə edilməsi, həmçinin beynəlxalq təcrübədə tətbiq edilən İT auditinin həyata keçirilməsi istiqamətində işlər görülmüş, Palatanın nəzarət fəaliyyətinin bütün mərhələlərini əhatə edən xüsusi AFİS proqramının hazırlanmasına başlanılmışdır.

**- Sizcə, son bir ildə büdcə vəsaitlərindən istifadə edənlərin fəaliyyətində əvvəlki illərlə müqayisədə müsbət meyillər varmı?**

- Son dövrlər xüsusilə güclənən islahatlar, idarəetmə sisteminin təkmilləşdirilməsi və normativ-hüquqi aktların təkmilləşdirilməsi maliyyə inzibatçılığına da öz təsirini göstərmişdir. Təkcə ötən il 53 audit nəticələri üzrə 714, 2017-ci ildə isə 49 auditlə 689 nöqsan müəyyən edilmişdir. Dövlət satınalmaları ilə bağlı Prezidentin təşəbbüsü ilə İnzibati Xətalar və Cinayət məcəllələrinə edilən əlavələr də, təbii ki, bu istiqamətdə məsuliyyətin daha da artmasına səbəb olmuşdur. Vəsaitdən təyinatı üzrə istifadə edilməməsi halları da azalmışdır. Yeri gəlmişkən qeyd edim ki, bizim təklifimizlə vəsaitlərin təyinatının dəyişdirilməsi anlayışına bu yaxınlarda hüquqi status verilməsi gözlənilir. Fikrimizcə, anlayışın tərifinin doğru verilməsi - normativ sənədlərdə təsbit edilməsi anlaşılmazlığın aradan qaldırılmasına və vəsaitlərin təyinatı üzrə istifadəsinə səbəb olacaq.

**- Hesablama Palatasının apardığı nəzarət tədbirlərində aşkarlanan faktlar, onların xarakteri və başvermə səbəbləri əlaqələndirilərsə, hansı nəticələrə gəlmək olar?**

- 2018-ci ildə Hesablama Palatasının nəzarət fəaliyyətini illər üzrə qruplaşdırsaq, auditlə əhatə olunmuş vəsaitin 21,1 faizi hesabat ilini, 50,7 faizi 2017-ci ili, qalan 28,2 faizi isə əvvəlki illəri əhatə edir. Keçən ilin nəticələri də göstərdi ki, nöqsanlar əvvəlki illərdəki kimi xarakterikdir. Ən çox yol verilən nöqsanlar əsasən büdcə qanunvericiliyinin pozulması, eləcə də mühasibat uçotunun aparılması, büdcə vəsaitlərinin istifadəsi zamanı satınalmalara cəlb edilməsi və dövlət büdcəsinin investisiya xarakterli vəsaitlərinin xərclənməsində olmuşdur. Nöqsanların baş verməsi, əsasən vəsaitlərin icrası üzrə məsul şəxslərin normativ-hüquqi aktların tələbləri ilə tam tanış olmaması və ya düzgün tətbiq edilməməsi ilə bağlıdır. İkinci bir tərəfdən, təcrübəyə əsaslanıb qeyd edim ki, daxili, həmçinin maliyyə nəzarətlərinin bütün mərhələlərinin güclü olması nöqsan və pozuntuların sayını minimuma endirir.

**- Məlumdur ki, Hesablama Palatasının əvvəlki hesabatlarında dövlət satınalmalarında yol verilən nöqsanlara geniş yer ayrılmışdır. Ötən ilin hesabatında bu sahədə dəyişikliklər olmuşdurmu?**

- Təəssüf ki, ötən ilki fəaliyyətimizlə bağlı hesabatda da dövlət satınalmaları sahəsində yol verilən nöqsanların xüsusi çəkisi üstün olmuşdur. Faktlar göstərir ki, büdcə təşkilatları tərəfindən satınalmalar təsdiq olunmuş büdcə göstəricilərinə uyğun aparılmır. Satınalmalar maliyyələşmənin açılması dövründə keçirilir ki, bu da rəqabətsiz satınalma metodlarının sayının artmasına, müqavilə öhdəliklərinin tam yerinə yetirilməməsinə, həmçinin satınalmanın təşkili ilə bağlı çoxsaylı prosedur pozuntularına yol verilməsi ilə nəticələnir. Bundan əlavə, satınalmaların keçirilməsinə cavabdeh komissiyalar həmin işi həyata keçirərkən onun məqsədəuyğunluğunu, nə qədər əsaslı və səmərəli olduğunu araşdırmır, satınalmanın şərtlər toplusunu formal və səthi hazırlayırlar.

Lakin qeyd etmək lazımdır ki, rəqabətli satınalma metodlarının sayının artması, satınalma qiymətləri ilə orta bazar qiymətləri arasında fərqin azalması, ümumiyyətlə, daha çox büdcə vəsaitinin satınalmaya cəlb olunması kimi müsbət istiqamətdə də dəyişikliklər mövcuddur.

**- Hesablama Palatasının hazırladığı rəylərdə və digər sənədlərdə müxtəlif istiqamətləri əhatə edən təkliflər, tövsiyələr əks olunur. Lakin həmin təklif və tövsiyələrin nəticəsiz qalması təəssüratı da var.**

- Bu mövqe ilə razılaşmıram. Bəli, Hesablama Palatasının hazırladığı rəylərdə, kollegiya qərarlarında və digər müxtəlif hesabatlarda dövlət vəsaitlərinin səmərəli, qənaətli və nəticəli istifadəsi, dövlət gəlirlərinin artırılması istiqamətində müxtəlif təklif və tövsiyələr əks olunur. Bundan əlavə, Hesablama Palatası həyata keçirdiyi nəzarət tədbirlərinin nəticəsi olaraq normativ-hüquqi aktlarda müəyyən etdiyi boşluqlar, ziddiyyətlər və təkrarçılıq halları ilə bağlı müvafiq təkliflərini Nazirlər Kabinetinə təqdim edir və bu təkliflər müxtəlif qərarlarda, aidiyyəti qanunlarda nəzərə alınır. Yeri gəlmişkən qeyd edim ki, dövlət borcu ilə bağlı strateji sənədin hazırlanması, eləcə də təbii resursla zəngin bir dövlət olaraq dövlət büdcəsi xərclərinin rasional istifadəsini təmin etmək məqsədini daşıyan büdcə qaydalarının tətbiqi Hesablama Palatasının son 5 ildə öz rəylərində əks etdirdiyi əsas məsələlərdəndir. Həmin təkliflər zamanı gəldikcə nəzərə alınıb, alınır və artıq hər iki istiqamətdə müvafiq addımlar atılıb.

Digər bir məsələ də vergilər üzrə artıqödəmə məbləğləri ilə bağlıdır və artıq bununla bağlı addımlar atılır. Hesablama Palatası artıq neçə illərdir ki, həmin məsələyə xüsusi diqqət ayırır. İlin sonunacan istifadə edilməyən vəsaitlərin depozit hesabatlara deyil, vahid xəzinə hesabına köçürülməsi ilə bağlı təkliflər də rəylərimizdə daim vurğulanır. Həmçinin dövlət büdcəsi xərclərinin nəticəliliyinin, səmərəliliyinin qiymətləndirilməsi, zəruri vəsaitlərin əsaslı şəkildə proqnozlaşdırılması üçün xərclərin orta müddətli xərclər çərçivəsində və strateji planlar əsasında hazırlanmasının zəruriliyi də rəylərimizdə qeyd edilir və artıq bu sahədə işlər görülür. Başqa sözlə, təkliflərimiz nəticəsiz qalmır və zamanı gəldikcə müvafiq normativ-hüquqi sənədlərdə istifadə olunur.

**- Hesablama Palatasının kollegiya qərarlarının icrasının nəticəsiz qalmaması və təkliflərinizin əhəmiyyətinin və tətbiqinin artırılması üçün daha nələr etməyi nəzərdə tutursunuz?**

- Bu, bütün ölkələri ali audit qurumlarının və beynəlxalq təşkilatların daim diqqətində olan məsələdir. Sözügedən məsələ üzrə müxtəlif ölkələrdə müxtəlif yanaşmalar mövcuddur və bu yanaşmalar qərarların tövsiyə xarakterli olmasından icbariliyə qədər dəyişir. "Hesablama Palatası haqqında" qanuna əsasən, palata kollegiyasının qəbul etdiyi qərarların icrası kənar dövlət maliyyə nəzarətinin obyektləri tərəfindən təmin edilməli və görülmüş tədbirlər barədə qərarların onlara çatdığı gündən etibarən bir ay müddətində məlumat verilməlidir. Həmçinin qanunla qərarların əsassız olaraq icra edilməməsi həmin obyektin xəzinə və bank hesabları üzrə (müdafiə olunan xərc maddələri istisna olmaqla) əməliyyatların dayandırılması barədə müvafiq xəzinə orqanlarına, müvəkkil banklara Hesablama Palatasının kollegiyasının qərarı əsasında təqdimatların verilməsi nəzərdə tutulur. Bu, Hesablama Palatasının kollegiya qərarlarının icra səviyyəsinə təsir edir və hesabat ilində biz bunun müsbət təsirini görürük. Eyni zamanda, Hesablama Palatası daim və mütləq şəkildə sərt tədbirlərin görülməsinə çalışmır. Çünki bəzən müəyyən qərarların icrası üçün zaman tələb olunur.

Qeyd etmək lazımdır ki, təkliflərimiz əsasən büdcə qanunvericiliyi və vəsaitlərinin icrası ilə bağlı müxtəlif sahələr üzrə aktların təkmilləşdirilməsi ilə bağlı olur. Burada da məqsəd vəsaitlərin səmərəli və nəticəli istifadəsini, hesabatlılıq və şəffaflığın gücləndirilməsini təmin etməkdir.

Hesablama Palatası təkliflərin və nəzarət tədbirlərinin nəticələrinin müvafiq qurumlarla geniş müzakirə edilməsinə daim hazırdır. Düşünürəm ki, belə müzakirələrin təşkili və bunun əsasında müvafiq qərarların qəbulu daha müsbət nəticələr əldə edilməsinə xidmət etmiş olar. Eyni zamanda, Hesablama Palatasının dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının büdcələrinin layihələri və icrası ilə bağlı hazırladığı rəylər geniş təhlillərə əsaslanır və dövlət vəsaitlərinin əsaslı proqnozlaşdırılması, qənaətli və nəticəli istifadəsi məqsədi daşıyan və burada müxtəlif istiqamətləri əhatə edən tövsiyələr əks olunur. Həmçinin millət vəkillərinin bu rəylərdən daha çox faydalanması da büdcə müzakirələrinin və dövlətin strateji prioritetlərinə əsaslanan büdcə qanunvericiliyinin qəbulunun daha məhsuldar olmasına töhfə verərdi.

**- Qanunun və hüquqi-normativ aktların pozulması və uyğunsuzluqlar aşkar olunduqda audit olunan obyektlərlə əlaqələrinizi necə tənzimləyirsiniz?**

- Əvvəla onu deyim ki, nəzarət tədbirləri zamanı aşkarlanan nöqsanlar müxtəlif xarakterli olur. Amma istənilən halda qanunvericiliyin tələblərinin icrası vəzifəmizin ən əsas tələbidir. Bu baxımdan Hesablama Palatası nəzarət obyektləri ilə sıx əməkdaşlıq edir və həmin əməkdaşlıq təkcə tədbir prosesi ilə məhdudlaşmır. Audit olunan qurumlar Palatanın qərarlarının, verilən tapşırıqların icrasına məsuliyyət daşıyırlar və bu qərarlar icra olunmadığı halda, cərimələrin tətbiq edilməsindən tutmuş qurumun hesabının bağlanılmasınadək qanunvericilik çərçivəsində tədbirlər görülür.

Hesablama Palatası haqqında qüvvəyə minmiş yeni qanun, həmçinin qəbul edilmiş kollegiya qərarlarının icra vəziyyətini yerində izləmək məqsədini daşıyan monitorinq fəaliyyətini də nəzərdə tutur ki, 2019-cu ilin ilk rübündə artıq bu istiqamətdə bir neçə nəzarət tədbiri həyata keçirilmişdir. Beynəlxalq standart və təcrübə də nəzarət tədbirlərinin nəticələrinin sonadək izlənməsini nəzərdə tutur. Onu da qeyd edim ki, cari il bu iş davam etdiriləcək. Ümumiyyətlə bildirim ki, kənar dövlət maliyyə nəzarətinin obyektləri tərəfindən Hesablama Palatasının kollegiya qərarları ilə müəyyən edilmiş məsələlərə daha çevik və nəticəli yanaşma meyli müşahidə olunur.

**- Kənar dövlət maliyyə nəzarəti orqanları həm də korrupsiya əleyhinə aktiv fəaliyyət göstərən qurumlar hesab olunur. Bu sahədə Hesablama Palatasının fəaliyyəti barədə nə deyə bilərsiniz?**

- Beynəlxalq təcrübəyə uyğun olaraq biz bu sahədə bir neçə istiqamətdə fəaliyyət göstəririk. İlk növbədə büdcə qanunvericiliyi bazasının təkmilləşdirilməsi ilə bağlı müxtəlif təkliflər veririk. Məlum olduğu kimi, qanunvericilikdə boşluqlar, təkrarçılıq və ya ziddiyyətlər korrupsiyaya yol açan əsas amillərdən hesab edilir və bizim təkliflərimiz əsasən bu halların aradan qaldırılması ilə bağlı olur. Hesabat ilində bizim çoxlu sayda təkliflərimiz həm dövlət büdcəsi ilə bağlı Hesablama Palatasının rəylərində əks olunmuş, həm də mərkəzi icra hakimiyyəti orqanlarına göndərilmişdir.

İkinci istiqamət nəzarət tədbirləri zamanı müəyyən edilmiş nöqsanları əhatə edir. Büdcə vəsaitlərinin müvafiq qaydada istifadə olunmaması hallarına rast gəldikdə, başqa sözlə, inzibati xəta və ya cinayət tərkibli əməllər müəyyən olunduqda aidiyyəti sənədlər prokurorluq orqanlarına göndərilir. Keçən il Hesablama Palatası 8 tədbirin nəticələri ilə bağlı məlumatları prokurorluq orqanlarına və 1 tədbir üzrə məlumatı isə Dövlət Təhlükəsizlik Xidmətinə göndərmiş, araşdırılması prokurorluq orqanları tərəfindən başlanılmış bir iş üzrə materiallar isə müvafiq sorğu əsasında təqdim olunmuşdur.

Üçüncü istiqamət hesabatlılıq və şəffaflığın yüksəldilməsi ilə bağlı addımlardır ki, nəzarət tədbirlərində qurumların bu sahədə fəaliyyətinin gücləndirilməsi məqsədilə təkliflər hazırlanır. Ümumiyyətlə qeyd edim ki, Hesablama Palatası olaraq biz də fəaliyyətimizdə hesabatlılıq və şəffaflığın yüksəldilməsi üçün daim müxtəlif tədbirlər həyata keçiririk.

**- Beynəlxalq təşkilatlar fəaliyyətinizi qiymətləndirərkən nələrə xüsusi diqqət etməyi və hansı sahədə fəaliyyəti gücləndirməyi tövsiyə edir?**

- Ümumiyyətlə, kənar dövlət maliyyə nəzarəti orqanlarının fəaliyyətinin qiymətləndirilməsi zamanı beynəlxalq təşkilatlar eyni metodoloji yanaşmanı tətbiq edirlər. Bizim Hesablama Palatasının fəaliyyətinin qiymətləndirilməsi son olaraq 2015-ci ildə Açıq Büdcə İndeksi üzrə hesabatda əks etdirilmişdir və qeyd edim ki, bu hesabatda mövqeyimiz kifayət qədər qənaətbəxşdir.

Bununla yanaşı, fəaliyyətimiz tətbiq edilən bir sıra beynəlxalq tələblərə hələ də tam cavab vermir və bu, əsasən dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının xərclərinin nəzarət fəaliyyəti ilə əhatə edilməsinə qoyulan tələbdir. Qeyd edim ki, sözügedən sahədə daha yaxşı mövqe nümayiş etdirmək üçün xərclərin ən azı 50 faizinin auditlə əhatə edilməsi tələb olunur. Həmçinin fəaliyyətlə bağlı hesabatı cəmiyyətin bütün təbəqələrinə əlçatan etmək məqsədilə daha sadə dildə tərtib olunmuş vətəndaş versiyasının hazırlanması, bu yanaşmanın Hesablama Palatasının dövlət büdcəsi və büdcədənkənar dövlət fondlarının büdcələri ilə bağlı hazırladığı rəylərə də şamil olunması tövsiyə edilir.

Qeyd edilən hər bir istiqamət üzrə konkret tədbirlər görürük. Aparılan qiymətləndirmələr, eyni zamanda, Hesablama Palatasının təkliflərinin hökumətin hesabatında əks etdirilməsini nəzərdə tutur və bu olmadığı halda qiymətləndirmə aşağı olur. Biz 2018-ci il üzrə hesabatda təqdim etdiyimiz təkliflərə mərkəzi icra hakimiyyəti orqanlarının münasibəti ilə bağlı ətraflı məlumat daxil etmişik. Lakin bu, həmin istiqamətdə qiymətləndirməyə təsir göstərmir, çünki qeyd etdiyimiz kimi, mərkəzi icra hakimiyyəti orqanlarının münasibəti ilə bağlı məlumatın həmin orqanların hesabatında dərc edilməsi tələb olunur. Eyni zamanda, nəzarət tədbirlərinin nəticələri ilə bağlı görülmüş işlər barədə məlumatların nəzarət obyektləri tərəfindən təqdim edilməsi qiymətləndirmədə qoyulan əsas tələblərdəndir və burada da digər qurumların belə məlumatı təqdim etməməsi Hesablama Palatasının mövqeyinə təsir edir.

**- Bilirik ki, Hesablama Palatasının 2018-2020-ci illəri əhatə edən Strateji İnkişaf Planında üç il ərzində görüləcək işlər müəyyənləşib. Həmin işlər çərçivəsində fəaliyyətinizin gücləndirilməsi üçün qarşıdakı dövrdə hansı istiqamətləri daha vacib hesab edirsiniz?**

- Strateji İnkişaf Planı (SİP) 5 əsas məqsədi əhatə edir və bu məqsədlər müasir dövrün çağırışlarına uyğun şəkildə müəyyən olunmuşdur. Buraya audit funksiyasının gücləndirilməsi, o cümlədən İT auditinin tətbiqi, beynəlxalq standartların öyrənilməsi, kadr potensialının gücləndirilməsi, hazırlanan rəylərin məzmun və keyfiyyət baxımından təkmilləşdirilməsi və s. aid edilmişdir. Qeyd edim ki, cari SİP əsas fəaliyyət indikatorlarını da müəyyən edir və bu indikatorlar hər bir məqsəd üzrə əldə olunmuş nəticələri qiymətləndirmək imkanı verir. Bu yanaşma məqsədə çatmaq istiqamətində mövcud durumun dəyərləndirilməsinə və müvafiq qərarların qəbul edilməsinə də şərait yaradır.

Həmçinin qeyd edim ki, Ali Audit Qurumlarının Beynəlxalq Təşkilatı olan INTOSAI son dövrlərdə Fəaliyyətin Qiymətləndirmə Çərçivəsinin tətbiqini tövsiyə edir. Bu çərçivə kənar dövlət maliyyə nəzarəti orqanının fəaliyyətinin ayrı-ayrı aspektlərinin qəbul edilmiş standartlara nə dərəcədə yaxın olmasını qiymətləndirməyi nəzərdə tutur. Həmin qiymətləndirmədən sonra isə strateji planların hazırlanması tövsiyə edilir. Biz də bu fəaliyyətə qoşulmuşuq. Bu işin sonunda daha konkret prioritetlər müəyyən ediləcək. Ümumiyyətlə, bizim üçün birinci dərəcəli əhəmiyyətə malik məsələlər kadr potensialının gücləndirilməsi, təkmil audit vərdiş və bacarıqlarının aşılanması, geniş məlumat bazasından istifadə istiqamətində bacarıqların əldə edilməsi, metodoloji sənədlərin hazırlanmasıdır.

**- Bir az da builki fəaliyyətiniz barədə məlumat verməyinizi xahiş edirik.**

- Cari ilin iş planının hazırlanması Hesablama Palatası haqqında yeni qanunun qüvvəyə mindiyi dövrə təsadüf etmişdir və bu planda yeni qanunla müəyyən edilmiş bir sıra məsələlər öz əksini tapmışdır. Yəni əvvəlki illərdə aparılan auditlər zamanı biz İT auditi və səmərəlik auditinin elementlərindən istifadə edirdiksə, artıq cari ildə hər iki istiqamətdə beynəlxalq təcrübəyə uyğun nəzarət tədbirlərinin keçirilməsi planlaşdırılmışdır. Eyni zamanda, qəbul edilən kollegiya qərarlarının icrasına nəzarət funksiyasını daşıyan və kənar dövlət maliyyə nəzarəti tədbiri olan monitorinqlər də iş planına daxil edilmişdir. Qeyd edim ki, ilin birinci rübündə artıq bir neçə monitorinq başa çatdırılmışdır.

Məlum olduğu kimi, hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə müxtəlif sahələri əhatə edən genişmiqyaslı islahatlar həyata keçirilir, əhalinin sosial rifahının yüksəldilməsinə xidmət edən mühüm qərarlar qəbul olunur. Bu baxımdan dövlət başçısı tərəfindən verilmiş tapşırıqların yerinə yetirilməsi ilə bağlı maliyyə nəzarəti tədbirlərinin gücləndirilməsi də fəaliyyətimizin əsas istiqamətidir.

*Müsahibəni apardı:*
***Raqif MƏMMƏDOV,***
***"Azərbaycan"***

# Türkiyə seçimini etdi

## Bələdiyyə seçkilərində siyasi qüvvələr nisbəti dəyişmədi



Türkiyədə yerli idarəetmə orqanlarına srağagün keçirilmiş seçkilərin ilkin nəticələri məlum olmuşdur. Səsvermədə iştirak etmək üçün 57 milyondan çox seçici qeydiyyata alınmış, onların 84,66 faizi səs vermişdir.

Seçkilərdə 12 siyasi partiya, həmçinin müstəqil namizədlər mübarizə aparmışlar. Hakim Ədalət və İnkişaf Partiyası (AKP), Böyük Birlik Partiyası, Cümhuriyyət Xalq Partiyası (CHP), Demokrat Partiyası, Demokratik Sol Partiya, Xalqların Demokratik Partiyası (HDP), İYİ partiya, Milliyyətçi Hərəkat Partiyası (MHP), "Səadət" partiyası, Türkiyə Müstəqil Partiyası, Kommunist Partiyası və "Vətən" partiyası seçkilərdə namizədlərini irəli sürmüşdü. AKP, MHP və Böyük Birlik Partiyası "Cümhur ittifaqı", CHP, İYİ partiya, "Səadət" partiyası və Demokrat Partiyası isə "Millət ittifaqı" blokları yaradaraq ayrı-ayrı bölgələrdə bir-birini dəstəkləmişdirlər.

"Anadolu" agentliyi xəbər verir ki, seçkilərdə AKP səslərin 44,32 faizini toplayaraq birinci yeri tutmuşdur. Hakim partiyanın nümayəndələri 770-dən çox bələdiyyəyə, o cümlədən 15 böyük şəhər, 24 vilayət və 536 rayon bələdiyyələrinə başçılıq etmək hüququ qazanmışlar. Bu isə ölkədəki bütün bələdiyyələrin təxminən 56 faizi deməkdir. Sonrakı yerləri CHP (30,10 faiz), İYİ partiya (7,45 faiz), MHP (7,31 faiz), HDP (4,24 faiz) və "Səadət" partiyası (2,71 faiz) tutmuşdur. Qalan partiyaların və müstəqil namizədlərin hər birinin topladığı səslər bir faizdən az olmuşdur.

Diqqəti belə bir məqam cəlb edir ki, səsvermənin nəticələrinə görə ölkədə siyasi qüvvələr nisbəti dəyişikliyə məruz qalmamış, həm iqtidar, həm də müxalifət elektoratını qoruyub saxlamışdır. Başqa bir diqqətəlayiq hal ondan ibarətdir ki, AKP böyük səs fərqi ilə bütün rəqiblərini geridə qoysa da, hakim partiyanın namizədləri bir sıra böyük şəhərlərdə, xüsusilə paytaxt Ankarada və İstanbulda məğlub olmuşlar. Partiyanın baş katibi Fatih Şahin məsələ ilə əlaqədar bildirmişdir ki, hər iki şəhərdə səslər sayılarkən ciddi səhvlərə yol verilmişdir: "Əlimizdə açıq-aşkar sübutlar var. Bütün bunları hüquqi əsasları ilə birlikdə rayon seçki komissiyalarına təqdim edəcəyik. Ankaralı seçicinin iradəsinin başqalaşdırılaraq ictimaiyyətə təqdim olunduğunun şahidiyik. Məsələn, A partiyasının 25 səsi, B partiyasının 125 səsi var. Bunların yeri dəyişdirilmişdir. Həm Ankarada, həm də İstanbulda çoxlu sayda etibarsız səsvermə bülletenləri də diqqəti cəlb edir. Ankarada 25 rayonun 25-də də buraxılmış səhvlərə və qanun pozuntularına görə şikayət edəcəyik". Şahinin fikrincə, qanun pozuntuları aradan qaldırıldıqdan sonra səsvermənin nəticələri AKP-nin xeyrinə dəyişə bilər.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan səsvermə başa çatdıqdan sonra seçicilərə müraciət edərək bu və ya digər partiyanın qələbə qazanmasından asılı olmayaraq, xalqın qalib gəldiyini vurğulamışdır: "Harada olursa-olsun, nəticə almağımız-almamağımız əhəmiyyətli deyil. Niyə? Qardaşlarım, unutmayın ki, hər olanda xeyir var. Demokratik mübarizə budur. İndi baxırsınız ki, Ankarada rayonların çoxu AKP-də, "Cümhur ittifaqı"ndadır. Belə bir mənzərə var. İstanbulda rayonların çoxu "Cümhur ittifaqı"ndadır, ya da müxalifətlə baş-başadır. Bu nə deməkdir? Xalqımız böyük şəhər bələdiyyə sədri vəzifəsini başqasına versə də, rayonları yenə də AKP-yə vermişdir". Prezident əlavə etmişdir ki, "biz siyasəti millətlə inadlaşmaq, milləti kiçiltmək, milləti təhqir etmək yox, sadəcə olaraq ölkəyə və millətə ən yaxşı xidmətlər vermək vasitəsi olaraq görürük; indiyədək bunu etdik, bundan sonra da bunu edəcəyik".

Ərdoğan vurğulamışdır ki, qarşıdakı 4-5 ildə ölkədə seçki keçirilməyəcək və bu illər islahatlar dövrü olacaq. Prezident qeyd etmişdir ki, hökumət yeni islahat proqramı hazırlayır. 2023-ci ilədək olan dövrdə iqtidarın prioriteti milli iqtisadiyyatın daha da inkişaf etdirilməsi, ixracatın artırılması və işsizliklə mübarizə olacaq.

Öz növbəsində ana müxalifətin - CHP-nin lideri Kamal Kılıçdaroğlu bəyan etmişdir ki, seçicilər yerli idarəetmə orqanlarına seçkilərdə demokratiyanı dəstəkləmişlər. O əlavə etmişdir ki, bələdiyyə seçkiləri Türkiyənin 81 milyon sakininin qələbəsi olmuşdur.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan hava hücumundan müdafiə qoşunlarının taktiki-xüsusi məşğələləri keçirilib

Müdafiə nazirinin təsdiq etdiyi 2019-cu ilin döyüş hazırlığı planına uyğun olaraq, hava hücumundan müdafiə qoşunlarının taktiki-xüsusi məşğələləri keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, məşğələlər zamanı zenit-raket komplekslərinin divizionları mövqe rayonlarına marş edərək start mövqelərinə yerdəyişmə, ərazinin hazırlanması və maskalanması tapşırıqlarını icra ediblər.

Raket bölmələri vacib obyektlərin hava hücumundan mühafizəsi, habelə şərti düşmənin raket zərbələrinin dəf edilməsi üzrə tapşırıqları da yerinə yetiriblər.

# "Ən yaxşı snayper" adı uğrunda yarış keçirilib

Azərbaycan Ordusunun hərbi hissələri arasında "Ən yaxşı snayper" adı uğrunda yarış keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sərrast atıcılıq qabiliyyətinə malik hərbi qulluqçuların müəyyənləşdirilməsi məqsədi daşıyan yarış nazirliyin xüsusi təchiz edilmiş təlim meydançasında keçirilib. Hərbi qulluqçuların təchizatı yoxlanıldıqdan sonra onlar əvvəlcədən hazırlanmış atəş mövqelərini tutub və normativləri icra ediblər.

Snayperlər hədəflərə fərdi və qrup şəklində atışlar edib, maneələrin dəf olunması üzrə tapşırıqları müvəffəqiyyətlə yerinə yetiriblər. Yarışın qalibləri mükafatlandırılıb.

# Azərbaycanlıların soyqırımının 101-ci ildönümü ilə bağlı Quba Soyqırımı Memorial Kompleksində konfrans keçirilib









Azərbaycanlıların soyqırımının 101-ci ildönümü ilə bağlı martın 31-də Quba Soyqırımı Memorial Kompleksində anım mərasimi və konfrans keçirilib.



AZƏRTAC xəbər verir ki, Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) A.Bakıxanov adına Tarix İnstitutu, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti və Quba Rayon İcra Hakimiyyətinin birgə təşkil etdiyi konfransda Prezident Administrasiyasının humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva, dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, diplomatik korpusun və dini konfessiyaların nümayəndələri iştirak ediblər.

Konfrans iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Quba şəhərinin mərkəzində ucaldılmış abidəsi önünə gül dəstələri düzüblər.

Sonra Quba Soyqırımı Memorial Kompleksinin ərazisində soyqırımı qurbanlarının xatirəsinə ucaldılan abidə ziyarət olunub. Soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla anılıb, ruhlarına dualar oxunub.

Konfrans iştirakçıları Quba Soyqırımı Memorial Kompleksində 31 mart - Azərbaycanlıların Soyqırımı Gününə həsr edilən foto və kitab sərgisi ilə tanış olublar.

Tədbirin açılışında şagirdlər dahi bəstəkar Üzeyir Hacıbəylinin "Arazbarı" muğamını ifa ediblər.

Mədəniyyət Nazirliyinin yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Zakir Sultanov açılış nitqində bildirib ki, konfransın məqsədi 1918-ci ilin mart-aprel aylarında Bakı Sovetinin mandatı altında fəaliyyət göstərən daşnak-bolşevik silahlı dəstələrinin Azərbaycan xalqına qarşı xüsusi qəddarlıqla törətdiyi soyqırımının ağır nəticələrinin yenidən diqqət mərkəzinə çəkilməsi və bu barədə həqiqətlərin dünyaya çatdırılmasıdır.

"Yüz bir il əvvəl erməni millətçiləri Bakıda, habelə Bakı quberniyasına daxil olan digər şəhər və qəzalarda on minlərlə dinc sakini məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetiriblər. Azərbaycanın Qarabağ, Zəngəzur, Naxçıvan, Şirvan, İrəvan və digər bölgələrində kütləvi qətllər, talanlar və etnik təmizləmələr həyata keçirən düşmənin bu vandalizm əməlləri nəticəsində yüzlərlə yaşayış məntəqəsi dağıdılıb, mədəniyyət abidələri, məscid və qəbiristanlıqlar yerlə-yeksan edilib", - deyə Z.Sultanov qeyd edib.

Konfransda mədəniyyət naziri Əbülfəs Qarayev çıxış edərək hər bir xalqın tarixində ağrılı, çətin məqamlar olduğunu bildirib. "Geri dönüb həmin hadisələrə diqqətlə baxmaq, tarixin dərslərindən ibrət götürmək vacibdir. Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan, XXI əsrin memarlıq üslubunda inşa olunmuş möhtəşəm Quba Soyqırımı Memorial Kompleksində bunun üçün gözəl imkan var.

Ulu öndər Heydər Əliyev deyirdi ki, vaxt keçdikcə bu faciə bizim üçün daha ağrılı olur, onu daha dərindən dərk edirik və çətinliklə qəbul edirik. Bu sözlər faciəli tarixin yaddaşlarda həmişə yaşayacağını bildirir. Biz soyqırımı qurbanları qarşısında baş əyirik, onları yad edərək gənc nəslimizə məlumat veririk, düzgün yol göstəririk. Övladlarımız bu tarixi yaddan çıxarmamalıdır. Çünki "böyük Ermənistan" ideyası ilə yaşayan ermənilər heç vaxt dinc durmayacaqlar. Erməni siyasətçiləri bu əməlləri həmişə davam etdirəcək. Buna görə də Azərbaycan xalqı ayıq olmalıdır. Bu çirkin siyasət davam edir. Biz beynəlxalq ictimaiyyəti daim məlumatlandırmalıyıq. Azərbaycan xalqının, burada əsrlərlə yaşayan digər xalqların yaratdıqları nemətləri, adət-ənənələri qorumalıyıq və gənc nəslə ötürməliyik", - deyə nazir Ə.Qarayev bildirib.

Mədəniyyət naziri vurğulayıb ki, Azərbaycan gündən-günə inkişaf edir, hər sahədə uğurlar qazanılır. Amma davamlı inkişafla yanaşı, tariximiz daha dərindən öyrənilməli, unudulmamalıdır.

"Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan siyasət nəticəsində iqtisadiyyatımız, ordumuz güclənir, beynəlxalq aləmdə sözümüz eşidilir, Azərbaycana hörmətlə yanaşılır və qəbul edilir. Lakin keçmişdə yaşadığımız bu kimi faciəli tarixi hadisələrə baxaraq, daha güclü və daha ayıq olmalıyıq. Heç vaxt Azərbaycanın bir qarış torpağının, mədəni sərvətinin kiçik bir hissəsinin belə düşmən əlinə düşməsinə imkan verməməliyik. Çünki o mədəni sərvətləri Azərbaycan xalqı yaradıb. Bu gün mədəni sərvətlərimizə qarşı da dayanmadan təcavüz edilir. Ayıq olmalıyıq ki, torpağımızı, mədəni sərvətlərimizi müdafiə edə bilək. Mən bu yolda çalışan tarixçilərimizə, mədəniyyət xadimlərimizə, siyasətçilərimizə, ictimai qurumların nümayəndələrinə təşəkkür edirəm. Biz fəal olmalı, xalqımızın başına gətirilən faciələri daha geniş şəkildə dünya ictimaiyyətinə çatdırmalıyıq. Hamımız əminik ki, Azərbaycanın gəncliyi öz gələcək həyatını ərazi bütövlüyünü bərpa etmiş bir ölkənin vətəndaşları olaraq yaşayacaqlar. Azərbaycan torpaqları işğaldan azad olunacaq, əsl həqiqətlər dünya miqyasında tanınacaq və bu faciənin də dünya miqyasında siyasi və hüquqi qiyməti veriləcək", - deyə Əbülfəs Qarayev qeyd edib.

Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev məruzəsində bildirib ki, 2007-ci ildə Quba şəhərində aparılan tikinti işləri zamanı kütləvi məzarlığın aşkar olunması ermənilərin xalqımıza qarşı həyata keçirdiyi mart soyqırımının dəhşətlərini bir daha ortaya çıxarıb. Əldə olunan maddi sübutlar və sənədlər 1918-ci ilin mart-aprel aylarında və sonrakı dövrlərdə erməni millətçilərinin törətdikləri qanlı aksiyaların coğrafiyasının daha geniş və faciə qurbanlarının sayının qat-qat çox olduğu sübuta yetirilib.

Erməni millətçilərinin cinayətkar əməllərinin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan xalqının milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədilə Prezident İlham Əliyevin 2009-cu il oktyabrın 30-da imzaladığı müvafiq sərəncama əsasən, Heydər Əliyev Fondunun dəstəyi ilə Quba şəhərində Soyqırımı Memorial Kompleksi inşa edilib. 2013-cü il sentyabrın 18-də dövlət başçısı İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə bu kompleksin açılışı olub. Soyqırımı kompleksində yalnız Quba qəzasında deyil, Bakı quberniyasının Cavad, Göyçay, Şamaxı və Bakı qəzalarında törədilmiş soyqırımına dair məlumatların əks olunduğu tarixi sənədlər saxlanılır.

Konfransda Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini Fidumə Hüseynova çıxışında konfransın əhəmiyyətini vurğulayaraq deyib ki, Azərbaycan torpaqlarında sonradan məskunlaşdırılmış nankor və mənfur ermənilər tarixboyu xalqımıza qarşı bir neçə dəfə dəhşətli soyqırımları törədib, öz məkrli məqsədlərinə çatmaq üçün hər cür vəhşiliyə, vandalizmə əl atıblar. "Biz bu gün tarixə nəzər salarkən bir şeyi bilməliyik ki, hələ ötən əsrin əvvəllərində təcavüzlə mübarizə aparan soydaşlarımız "Difai" təşkilatını yaratmışdı. Amma sovet ideologiyası həmin təşkilatın üzvlərini panislamist adlandıraraq, xalqı üçün fədakar zəhmətinə kölgə salmışdı. Bu kimi tarixi faktlar çoxdur. Biz bu faktları dünya ictimaiyyətinin diqqətinə çatdırmalıyıq. Öz gücümüzü göstərməliyik. Azərbaycan həqiqətlərini dünyaya çatdıran çoxsaylı beynəlxalq tədbirlər keçirilir və bu proses davam etdirilməli, miqyası daha da böyüməlidir", - deyə F.Hüseynova söyləyib.

AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli çıxışı zamanı artıq bir neçə ildir Quba Soyqırımı Memorial Kompleksində geniş tərkibdə elmi ictimaiyyətin iştirakı ilə konfransların keçirildiyini diqqətə çatdırıb. Bildirilib ki, bu gün dünyanın müxtəlif ölkələrində Azərbaycan xalqına qarşı törədilmiş soyqırımı qurbanlarının xatirəsi yad edilir. Bu tədbirlərdə son zamanlar soyqırımı ilə əlaqədar yazılan çoxsaylı tədqiqat əsərləri, üzə çıxarılan materiallar barədə ətraflı məlumat verilir.

"Quba Soyqırımı Memorial Kompleksi, burada nümayiş etdirilən sənədlər, kompleksin ərazisində soyqırımı qurbanlarının xatirəsinə ucaldılan abidə ermənilərin qaniçənliyini, vəhşiliyini, vadalizmini bəşəriyyətə nümayiş etdirmək üçün əvəzsiz nümunədir. Çox təəssüf ki, sovet hakimiyyəti illərində bu hadisələr xalqımıza birtərəfli qaydada çatdırılıb və ermənilərə təbliğat aparmaq üçün şərait yaradılıb. Həmin dövr üçün ermənilərlə azərbaycanlılar arasındakı münaqişə, XX əsrin əvvəllərində törədilən qırğınlar barədə dahi dramaturq Cəfər Cabbarlının "1905-ci ildə" əsərində yazılanlardan başqa heç bir tutarlı mənbə yox idi. Həmin hadisələrdən bəhs edən sənədlərin hamısı məxfi adı ilə Azərbaycan alimlərindən gizlədilirdi. Yalnız 80 il sonra - 1998-ci il martın 26-da ulu öndər Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərmanla həmin dəhşətli hadisələrə siyasi qiymət verilib və 31 mart - Azərbaycanlıların Soyqırımı Günü elan edilib. Bundan sonra bu tarixi araşdırmaq üçün geniş meydan açıldı. Azərbaycan xalqına qarşı törədilmiş mart soyqırımının 100 illiyi ilə əlaqədar ötən il Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən, ölkəmizdə və xaricdə müxtəlif tədbirlər keçirildi", - deyə İ.Həbibbəyli bildirib.

Akademik İ.Həbibbəyli qeyd edib ki, azərbaycanlıların kütləvi qırğını, repressiyalara məruz qalması, doğma yurdlarından sürgün edilməsi və didərgin salınması XX əsr tarixinin ən faciəli və dəhşətli ağrılarındandır. 1918-ci ilin mart-aprel aylarında daşnak-bolşevik birləşmələrinin Azərbaycanın müxtəlif bölgələrində törətdikləri amansız qətliamların əsas məqsədi azərbaycanlıları milli etnos kimi yer üzündən silmək, onların tarixi torpaqlarına yiyələnmək olub.

Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral çıxışında hər iki ölkənin qarşılaşdığı təhdidlərin, faciələrin hər zaman eyni olduğunu diqqətə çatdırıb. "Biz iki dövlət, bir millətik. 1918-ci ildə Birinci Dünya müharibəsinin sonlarında rus orduları Anadoluya irəliləməyə başladı. Ərzurumu, Ərzincanı ələ keçirdilər. Bu zaman Bakıdakı İsmailliyyə binasında yerləşən xeyriyyə cəmiyyəti Anadoludakı qardaşlarına yardım etdi. Oradakı yetimləri, dulları ac buraxmayıb onlara sahib çıxdı. Məncə, İsmailiyyə binasının 1918-ci il martın 31-də yandırılan ilk binalardan biri olması heç də təsadüfi deyil. Türkiyə Cümhuriyyətini, Osmanlı imperiyasını keçmişdə soyqırımı törətməkdə ittiham edənlər özlərinin əməllərini unutmaqdadırlar. 1918-ci ildə Azərbaycanda etdiklərinin eynisini Anadoluda da həyata keçirdilər. Ərzurum, Ərzincan, Van, Qars, Ərdahan və İğdırda hansı qətliamlar törətdilərsə, eynisini Azərbaycan torpaqlarında da törətdilər. Bu gün ermənilər utanmadan türkləri soyqırımı törətməkdə günahlandırırlar. Anadoluda törətdikləri hadisələri də Osmanlı dövlətinə qarşı özlərini müdafiə etmək üçün törətdiklərini iddia edirlər. O zaman onlardan soruşmaq lazımdır ki, bəs niyə Azərbaycanda bu əməlləri törətdin? Axı burada sənə toxunan yox idi. Azərbaycanda o dönəm yaşananlar eyni şəkildə Anadoluda da yaşanıb. Bunun səbəbi də "böyük Ermənistan" xəyalıdır. Ermənilər "böyük Ermənistan" xəyalından bu gün də vaz keçməyiblər. 27 il əvvəl bunu öz gözlərimizlə gördük. Qarabağda, Xocalıda, Azərbaycanın işğal altındakı 7 rayonunda bunun şahidi olduq. Biz bu gün ayıq olmalıyıq. Xüsusən, gənclərimiz keçmişimizi öyrənib, gələcəyimizə sahib çıxmalıdırlar", - deyə səfir E.Özoral söyləyib.

AMEA-nın Tarix İnstitutunun direktoru, Milli Məclisin deputatı, akademik Yaqub Mahmudov dünya tarixində ən vəhşi soyqırımların Azərbaycan xalqına qarşı edildiyini bildirib. "Bu gün Azərbaycan öndə gedən ölkələrdən biridir. Prezidentimiz müasir inkişafın Azərbaycan modelinin müəllifidir. Fikrimcə, iqtisadi, sosial və digər sahələrdə qazanılan uğurlarla yanaşı, bu modelin ən böyük uğuru tariximizə sahib çıxmağımızdır. Azərbaycançılıq, türkçülük təfəkkürünün qalib gəlməsidir. Erməni quldurlarının Azərbaycana qarşı törətdikləri, dinc insanlara, Azərbaycan xanımlarına, qız-gəlinlərinə, qocalara verdiyi əziyyətlərin analoqu yoxdur, dünya tarixində belə vəhşiliyə təsadüf olunmur. Quba Soyqırımı Memorial Kompleksinin yaradılması tariximizə sahib çıxmaq baxımından olduqca vacib addım oldu. Dünya ermənilərin yalanını çox asan eşidir və ona inanır. Bizim həqiqətləri isə qəbul etməyə meyilli deyil. Ona görə də biz daha çox işləməliyik. Təbliğat sistemimizi daha da mükəmməlləşdirməliyik. Bütün bunlarla bağlı çox qiymətli sənədlər var. Təəssüf doğuran hal isə dünyanın bunu görmək istəməməsidir. BMT-nin Ermənistanın təcavüzkar ölkə olması barədə 4 qətnaməsi var. Məgər dünya bunu görmür?", - deyə akademik Y.Mahmudov söyləyib.

Konfransda tarix elmləri doktoru, professor Solmaz Rüstəmova-Tohidi, Milli Məclisin deputatları Vahid Əhmədov, Qənirə Paşayeva və başqaları məruzələrlə çıxış ediblər.

Bildirilib ki, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ermənilərin törətdikləri bu soyqırımı cinayətinin araşdırılması məqsədilə Fövqəladə İstintaq Komissiyası yaradıb. Komissiyanın üzə çıxardığı həqiqətlərin xalqın yaddaşında hifz edilməsi və dünya ictimaiyyətinə çatdırılması üçün bir sıra tədbirlər görülüb. Lakin 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ilə bu proses dayandırılıb, baş verənlərin tam araşdırılmasının və hadisələrə müvafiq siyasi-hüquqi qiymətin verilməsinin qarşısı alınıb.

Konfransın sonunda iştirakçılar Quba Soyqırımı Memorial Kompleksinin xatirə kitabına ürək sözlərini yazıblar.

# DSX-nin hərbi hissə və bölmələrində 31 mart soyqırımının 101 illiyi ilə əlaqədar silsilə tədbirlər keçirilib

Dövlət Sərhəd Xidmətinin (DSX) bütün hərbi hissə və bölmələrində 31 mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar silsilə anım tədbirləri keçirilib.









Dövlət Sərhəd Xidmətinin Aparatında, Sahil Mühafizəsində, Azərbaycan İstiqlal Muzeyində və Respublika Hərbi Prokurorluğunun Memorial Soyqırımı Muzeyində keçirilən tədbirlərdə azərbaycanlılara qarşı soyqırımı siyasətinin erməni şovinist millətçiləri tərəfindən yüzillər boyu planlı surətdə həyata keçirildiyi vurğulanıb.

Tədbirlərdə çıxış edən Milli Məclisin deputatı Fəzail İbrahimli və Azərbaycan Milli Elmlər Akademiyasının Neft-Kimya Prosesləri İnstitutunun direktoru, professor Vaqif Abbasov bu siyasətin mahiyyətinin azərbaycanlıları doğma torpaqlarından sıxışdırıb çıxarmaq və fiziki cəhətdən məhv etmək yolu ilə mifik "böyük Ermənistan dövləti" yaratmaq olduğunu bildiriblər. Müxtəlif dövrlərdə böyük dövlətlərin müəyyən dairələrinin təhriki ilə yeridilən bu siyasətin əsas məqsədinin tarixi faktları və arxiv sənədlərini saxtalaşdırmaqla, dezinformasiya xarakterli məlumatlar yaymaq və psixoloji-informasiya metodlarından istifadə edərək dünyada ictimai fikrə təsir etməkdən ibarət olması, məqsədlərinə nail olmaq üçün erməni millətçiləri ayrı-ayrı ölkələrin ərazilərində erməni diasporunun və lobbisinin imkanlarından geniş istifadə edərək ideoloji, separatçı və terrorçu təşkilatlar yaratdıqları bildirilib.

Tədbirlərdə 1918-ci il martın son iki günündə erməni-bolşevik birləşmələri gəmilərdən və təyyarələrdən Bakının müsəlmanlar yaşayan hissələrini bombardman etmələri, silahlı daşnakların evlərə soxularaq 17 minə qədər dinc azərbaycanlını, o cümlədən qadınları, körpələri və qocaları misli görünməmiş vəhşiliklə qətlə yetirdikləri, Bakı qırğını ilə kifayətlənməyən ermənilərin Naxçıvanda, Şamaxıda, Lənkəranda, Qubada, Xaçmazda, Ağsuda dəhşətli qətllər törətdikləri, yüzlərlə kəndi yerlə-yeksan etdikləri qeyd olunub.

Ermənilər tərəfindən törədilmiş çoxsaylı soyqırımı hadisələrinin mərhələlərlə şərh olunduğu tədbirlərdə vurğulanıb ki, bu vəhşiliklərin beynəlxalq müstəvidə tanıdılması və erməni faşizminin ifşası ilə bağlı ilk əməli təşəbbüs ulu öndər Heydər Əliyev tərəfindən edilib. Ümummilli lider Heydər Əliyevin 1998-ci il 26 mart tarixli Fərmanı ilə 31 mart - Azərbaycanlıların Soyqırımı Günü elan edilməsi Azərbaycan xalqının əsrlərboyu üzləşdiyi məhrumiyyətlərə verilən əsl tarixi qiymət olub. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan həqiqətlərinin, o cümlədən erməni şovinistləri tərəfindən xalqımıza qarşı həyata keçirilən soyqırımı siyasətini dünya ictimaiyyətinin diqqətinə çatdırılmasını səfirliklərimiz və diaspor təşkilatlarımız qarşısında vacib məsələ kimi qoyub.

Tədbirlərdə 31 mart - Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş sənədli filmlər nümayiş etdirilib.

***"Azərbaycan"***

# ABŞ Azərbaycanlıları Şəbəkəsi Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar informasiya kampaniyası aparır

ABŞ Azərbaycanlıları Şəbəkəsi Azərbaycanlıların Soyqırımı Gününün 101-ci ildönümü ilə əlaqədar amerikalıların məlumatlandırılması üzrə kampaniya aparır.

AZƏRTAC xəbər verir ki, ABŞ Azərbaycanlıları Şəbəkəsinin bu münasibətlə Birləşmiş Ştatların Prezidenti və vitse-prezidentinə, Dövlət Departamentinə, konqresmenlərə, ştatların parlamentlərinin üzvlərinə və administrasiyalarına, KİV-ə ünvanladığı müraciətdə qeyd olunur ki, hər il martın 31-də dünya azərbaycanlıları 1918-ci ilin mart hadisələrini qeyd edirlər. Həmin tarixdə Bakı, Şamaxı, Göyçay, Qubada azərbaycanlıların kütləvi qırğını baş verib, həmçinin XIX və XX əsrlərdə bunun kimi digər faciələr yaşanıb. Tarixçilərin qənaətinə görə, uzun illər davam edən soyqırımı nəticəsində həlak olan azərbaycanlıların sayı 500 mindən çoxdur. Diqqətə çatdırılır ki, 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti (AXC) elan edildikdən sonra mart hadisələri araşdırılıb, 1919-1920-ci illərdə martın 31-i milli matəm günü kimi qeyd olunub.

Sovet İttifaqı illərində Azərbaycan xalqı soyqırımı qurbanlarının xatirəsini yad edə bilməsə də, 1991-ci ildə Azərbaycanın müstəqilliyini elan etməsindən sonra ölkədə və xaricdə yaşayan azərbaycanlılar soyqırımının ehtiva etdiyi həm 1918-ci ilin bu faciəsini, həm də 1992-ci ildə Xocalıda dinc azərbaycanlıların vəhşicəsinə qətlə yetirilməsi gününü qeyd edirlər.

ABŞ Azərbaycanlıları Şəbəkəsi bu sənəddə azərbaycanlıların soyqırımı tarixi faktının tanınması üçün Birləşmiş Ştatların federal və yerli hakimiyyətlərinə müraciət ediblər.

ABŞ Azərbaycanlıları Şəbəkəsinin apardığı məlumatlandırma kampaniyası nəticəsində azərbaycanlıların soyqırımı 2009-2011-ci illərdə Nevada ştatının qubernatorları Cim Qibbson və Brayn Sandoval, 2011-ci ildə Texas ştatından olan konqresmen Con Zervasın imzaladıqları üç proklamasiya ilə tanınıb.

# Ermənistan silahlı qüvvələri atəşkəs rejimini pozmaqda davam edir

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 30 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex, Şavarşavan kəndlərində və adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Qaymaqlı, Fərəhli, Aşağı Əskipara, Qızılhacılı, Cəfərli kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Şıxlar, Mərzili, Füzuli rayonunun Qorqan kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.






# O köç Murovdan bir də keçəcək...

## Kəlbəcərsizliyin 26-cı ilinə elegiya

**Bağışlama məni...**
**Qıymasan da, ürəyini daşa döndər...**
**Bağışlama...**
**Səndən yaranıb, sən olası bir ovuc torpağı götürüb səndən uzaqlaşmışam...**
**Sən mənə, mən sənə çevrilə bilmirəm...**
**Son vaxtlar yuxularıma girmirsən...**
**Adını dilimə gətirə bilmirəm...**
**Haqqım yoxdur...**
**İndi sənin kainatda tayı, bərabəri, bənzəri olmayan füsunkarlığını yadlar çapır, talayır...**
**Mən daha sənin hər cığırına, dolanbacına, aşırımına, gədiyinə qədəm basa bilmirəm...**
**Yəqin, cığırları qanqal basıb, dolanbaclarında yad izlər görünür...**
**Daha göz-gözü görməyən dumanında, çiskinində azmıram...**
**Əl uzatsam qoparacağım buludların kişnədiyi, çaxnaşan şimşəklərin zirvələrin bağrını qılınc kimi doğrayıb itdiyi...**
**Bax o yerlə göyün qovuşduğu yer var ha, daha mən orda yoxam...**
**Yoxluğam...**
**Lap çoxdandır itirdiyim özümü axtarıram...**

❖ ❖ ❖

İlahi, möcüzəndənmi var etmişdin bu diyarı...

Nağılmıdır, əfsanəmi, sehrmi, tilsimmi...

Bəlkə nə mən olmuşdum, nə də həmin ecazkar diyar...

Olardı dörd, ya beş yaşım, valideynlərimlə bərabər boyum bərabəri qalxmış otların arası ilə hoppana-hoppana, dəcəllik edəedə yaylağa çıxırdım. Bu, həyatımdakı ən gözəl anlar idi...

Yaylağa çıxmağa “dağa köçmək” deyirdik. Amma bu köç 1993-cü ilin aprel ayında Murovdan üzü Gəncəyə doğru yol alanda nifrət etmişdim həmin “köç” sözünə...

Amma bütün bunlar sonra olmuşdu və mən hələ Kəlbəcər adlı sehrli bir diyarın qoynunda xoşbəxtlərin xoşbəxti idim.

Adətən məktəblər bağlanıb yay tətili başlayanda Kəlbəcər eli mal-qarasını, qoyun-quzusunu da yığıb üz tutardı dağlara...

Biz də kəndimizin yaxınlığındakı Qoçdaş yaylağına çıxardıq. Kişilər alaçıq qurma hazırlıqları ilə məşğul olar, qadınlarsa həyətdə qaladıqları ocağın üzərində xörək asardılar. Ocaqdan qalxan tüstü nazilə-nazilə uzanıb qoşulardı göydəki buludlara...

Biz balacalar da həmin mənzərəni izləyə-izləyə bulud xəyallar qurardıq...

❖ ❖ ❖

Minlərlə çiçəyin toxuduğu çəmənliklərdə sevinclə atılıb-düşər, çələng hörərdik...

Balaca qıvrım quzuları qatıb qabağımıza otarar, ta anamız bizi səsləyənə qədər alaçıqlara dönməzdik. Çadırların divarını, döşəməsini qız-gəlinlərin, nənələrin toxuduğu al-əlvan xalçalar bəzəyərdi. Onlardakı hər naxış, hər çeşni sanki nağıllarla, əfsanələrlə bu dünya arasındakı körpü idi...

Yaylaqla bağlı heç zaman yadımdan çıxmayan xatirə isə məni həm qorxudub, həm də heyrətə salan göy gurultusu idi...

Bir də görürdün qəfil şimşək çaxdı, buludlar toqquşdu, göy dəhşətlə nərildədi və iri yağış damlaları çadırı amansızcasına döyəcləməyə başladı. Hər zaman mənə elə gəlirdi ki, elə bil kimsə çadırımızın üzərinə çıxıb onu nağara kimi tappıldadır...

Bir dəfə isə avqust ayının ortalarında günorta yumurta boyda dolu yağmağa başladı. O qədər şiddətlə yağırdı ki, çadırı dəlmədeşik etmişdi.

❖ ❖ ❖

Balacaların hər birinin adına öz qoyunu, inəyi var idi. Mənim də “merinos” cinsinə aid bir qoyunum var idi. Belinin bir hissəsi və gözlərinin ətrafı qara idi, elə bil sürmə çəkilmişdi, digər yerləri isə ağappaq.

Anam deyirdi ki, doğulan bütün quzuların ən gözəli həmin qoyunun quzusu, yəni mənim quzumdur, Qaragöz...

Bu sözlər məni o qədər fərəhləndirirdi ki, gedib-gəlib balaca quzumun gözlərindən öpürdüm...

Hər axşamçağı buzovumuzu axtarmağa gedirdim. O, ipə-sapa yatmayan bir buzov idi, heç zaman özü qayıdıb gəlmirdi qapıya. Göz-gözü görməyən dumanı yara-yara gedib onu tapıb, quyruğundan tutub gətirirdim. Demək olar ki, bu, hər gün təkrar olunurdu və yaxşı ki, belə olurmuş, yaddaşıma qazınırmış...

Baldırğan yarpağından süzülən bulaqların altına birbaşa əlimizi tuta bilmirdik, soyuğu qılınc kimi kəsərdi balaca barmaqlarımızı...

❖ ❖ ❖

Rusiyada yaşayan Nüsrət əmim yaylağa qonaq gələndə isə bizim üçün başqa bir toy-bayram olardı.

Əmimin gəldiyini eşidən qohum-qonşu da yığılırdı başına. Ordan-burdan söhbət edirdilər gecə yarıya qədər, daha sonra saz gəlirdi ortaya. Telli sazın yanıqlı sədaları altında əmim yazdığı Kəlbəcər həsrətli şeirlərindən deyirdi. Bu zaman onun gözləri dolurdu və bu məni çox heyrətləndirirdi. İlk dəfə o zaman vətən həsrəti ilə tanış olmuşdum və illər sonra özüm də bu hisləri yaşamışdım, amma tamamilə başqa cür, daha dözülməz...

Sonralar onun bu nisgili yurd qubarına çevriləcəkdi:

**Qaçqın sözün tarixlərdən pozaram,**
**Məzarımı öz əlimlə qazaram.**
**Başdaşıma vətən sözün yazaram,**
**Əgər ölsəm doğulduğum yerdə mən...**

❖ ❖ ❖

Nənəm dovğa, göy kətəsi, qatlama bişirirdi...

Təbii ki, yarpız, cincilim, qırxbuğum yığmaq biz balacaların üzərinə düşürdü. Hərəmiz bir yekə heybə göy-göyərti yığıb gətirirdik, bu zaman qarşımıza ağpapaqlı göbələklər çıxanda isə başqa aləm olurdu.

Onları da tərs çevirib düzürdük peçin üstünə, içinə də azacıq duz səpirdik ki suyu çıxsın, içək. Göbələklər cızhacızla bişirdi, ətrafa elə gözəl ətir yayılırdı ki...

Nehrə çalxayırdılar: buz kimi ayran, sarı kərə yağı, isti xamıralı ilə yeyəndə elə bilirdin ki, bu dünyanın dadı, tamı, ləzzəti elə bu üç təamda birləşib...

❖ ❖ ❖

Hələ dan üzü ağarmamış çoban tütəyinin dağ-daş inlədən səsi aləmə yayılardı...

Tez ayağa qalxıb alaçıqdan bayıra qaçardım. Axı babam söz vermişdi ki, məni biçənəyə aparacaq. Babam zabitəli, boylu-buxunlu, şax qamətli bir kişi idi. Yaşı 90-a yaxın olsa da, hər zaman at belində gəzərdi.

Amma məcburi köçkünlük həyatının elə ilk ayındaca qəddi bükülmüş, gözlərinin nuru sönmüşdü və çox keçmədən də bu dünyayla vidalaşmışdı dağ kimi babam...

Əvvəldən biçilib yerə sərilmiş ot laylarının arası ilə irəlilədikcə yanı balalı kəkliklər ürküşüb pırıltıyla havaya qalxırdı.

Babamın dəryazla biçdiyi təzə yaşıl otların ətri gül-çiçəyin bihuşedici qoxusuna qarışırdı. Mən isə otların arasında ordan-burdan boylanan çiyələkləri ətəyimə yığırdım. Günorta babam başını qaldırıb günəşə baxardı və deyərdi ki, hə, bala, nahar vaxtıdır. Yaxınlıqdakı bulağın başında oturur, nənəmin səliqə ilə bükdüyü yemək bağlamasını açırdıq. Təzə yuxa, yenicə hazırlanmış yumşaq pendir, beçə soyutması, yanında da bolluca göy soğan...

Daha sonra isə balaca ot tayasının kölgəsində gün əyilənə qədər şirin-şirin yuxumuzu alardıq...

❖ ❖ ❖

Axşamçağı biz alaçığa dönəndə çobanlar mal-qaranı örüşdən qaytarırdı. Analarının gəlişini uzaqdan hiss edən arxacdakı quzuların, buzovların mələşməsi bir-birinə qarışırdı.

Tez qaçırdım nənəmin yanına... İnəkləri, qoyunları sağdıqca qıjıltı ilə vedrədə köpüklənən ağ südə baxırdım...

Nənəmlə bərabər əvəlik, kəklikotu, qantəpər, gülxətmi yığardıq. Sonra da yollanardıq meşəyə, itburnu, zirinc, əzgil, çölarmudu dərməyə. İtburnudan, zirincdən turşu, çölarmudundan qax hazırlanırdı. Əzgili isə samanın arasına yığırdıq ki, qışa qədər yetişsin və yumşalsın.

Payız yaxınlaşanda məktəbə gedəcək olanlar kəndə qayıdar, qalanlar isə dağların zirvəsindən nisbətən aşağıya, binələrə köçərək payızı da orada keçirərdilər. Yağ, pendir hazırlayar, motal tutardılar...

Bəlkə də uşaq hafizəmə ilişib qalan bu yaylaq həyatı ilə bağlı kiçik epizodlar kimlər üçünsə adi görünə bilər, amma həmin o xatirələr yoxdursa, demək, mən də yoxam...

❖ ❖ ❖

Bütün bunlar 1992-ci ilə qədər olmuşdu...

Həmin ildən sonra bir daha dağlara qalxa, onlarla salamatlaşa bilmədik...

Daha bilmirdik ki, bəlkə bu yerlərə bir də gəlmədik...

Amma sən - Kəlbəcərim bütün bunların hamısını hiss etmişdin...

İndi illər keçəndən sonra başa düşürəm ki, o məşum aprel günündə öz doğma övladlarının səni tərk etmə, səndən uzaq qaçma təlaşlarının qarşısını almaq istəyirdin... Murov, necə dilə gəlmişdin, necə qəzəblənmişdin...

Bir tufan qoparmışdın ki, yer-göy lərzəyə gəlirdi...

Bu can səndən daha şirinmiydi ki, o zaman sənə qulaq vermədik, səni başa düşmədik?!

Elə o zaman orda, o köç karvanı ilə birlikdə sənin tarının altında qalmaq, sənin bağrında əbədi qalmaq imkanı var idi.

Biz qaçqınlığı seçdik...

Amma bu, nəfəs almaqdır, yaşamaq deyil!

Ürəyimizdəki o göynərti heç getmir!

Heç nə bizi ürəkdən sevindirmir!

Nə isə çatmır, yarımçıqdır...

Bax o sənsən, bütövümüz...

❖ ❖ ❖

“Kəlbəcərliyəm” sözünü eşidən hələ elə bir insana rast gəlməmişəm ki, sənə olan heyranlığını, itkinin təəssüfünü büruzə verməmiş olsun...

Amma sənə olan məhəbbət yalnız füsunkar təbiətin olduğuna görə deyil ki...

Sən cadarlanmış torpaq, çopur qara daş parçası da olsaydın, fərq etməzdi, elə mənim üçün dünyanın dilbər guşəsi sayılacaqdın...

İnsanı digər canlılardan fərqləndirən başlıca dəyər xatirələridir.

Çox zaman düşünürəm ki, yaddaşım itib, son 26 ildə baş verən heç bir hadisəni nəsə yadıma sala, xatırlaya bilmirəm...

Amma o da var ki, Kəlbəcərdə olduğum o kiçik zaman dilimində baş verən hadisələri xırda detallarına, ətrinə, dadına qədər xatırlayıram...

Demək, bu 26 ildə yaşamamış, sadəcə bioloji bir fərd kimi varlığımı, varlığımızı sürdürmüşük...

❖ ❖ ❖

Hara gedirəmsə, kimə baxıramsa, qulaqlarımda bir səs əkssəda verir, gözlərdən ürəyimə saplanan bir sual oxunur: Kəlbəcərsiz necə dözürsünüz?

Dözə bilmirik ki, bağrımız partlayır...

Ürəyimiz parçalanır, qəlbimiz çilik-çilik olur...

Getməyə yerimiz yoxdur, sərgərdan qalmışıq...

Ölüb yarandığımız torpağa qarışa bilmirik, ruhumuz didərgin düşüb...

Bu köç yolunu azıb...

Qayıt, qayıt, ay elim, obam, ay köç karvanım, üzü Murova, Qoçdaşa, Kəlbəcərə sarı...

❖ ❖ ❖

*Bağışlama məni...*
*Sənsiz bu dünyada bir heç olduğumu anlayanda gec olduğu üçün...*
*Məmməd Aslan harayı çəkim ki, ay ellər, “Gözümə Kəlbəcər torpağı tökün...”*
*Məzarım başında “Dilqəmi” çalın...*
*Deyə bilmirəm...*
*Bağışla...*
*Bağışla məni, Kəlbəcər...*
*Bağışla, uşaq olmuşam...*

***Yasəmən MUSAYEVA,***
***“Azərbaycan”***

***P.S.*** *Kəlbəcərin bu fotoları əməkdaşımız, əməkdar mədəniyyət işçisi Ağaəli Məmmədov tərəfindən 35 il əvvəl çəkilib. 1984-cü ildə fotoyaddaşa köçürülən şəkillər Kəlbəcərin o bəxtəvər, o xoşbəxt günlərini xatırladan qiymətli mənbələrdəndir...*

### Dağlar qaldı Kəlbəcərdə...

**Zirvəsi var, qarı da var,**
**Dağlar bizim dağlar deyil.**
**Yurd düşənin barı da var,**
**Dağlar bizim dağlar deyil.**

**Bu dağların dili başqa,**
**Çəmən, çiçək, gülü başqa,**
**Bu dağların eli başqa,**
**Dağlar bizim dağlar deyil.**

**Biz yolçuyuq, ömür yoldu,**
**Cavanlığım orda qaldı.**
**Gec anladım, gözüm doldu,**
**Dağlar bizim dağlar deyil.**

**Ömür ötür pərdə-pərdə,**
**Həsrət məni saldı dərdə.**
**Dağlar qaldı Kəlbəcərdə...**
**Dağlar bizim dağlar deyil.**

***CAVİD***












# Barselonada azərbaycanlılar erməni təxribatına qarşı etiraz aksiyası keçiriblər




İspaniyada yaşayan soydaşlarımız Barselona şəhərində bir qrup erməni təşkilatı tərəfindən təşkil olunmuş “Artsax müharibəsinin qəhrəmanları” adlı təxribat xarakterli konsertin keçirildiyi binanın qarşısında etiraz aksiyası keçiriblər. Etiraz aksiyasında iştirak etmək üçün İspaniyanın müxtəlif regionlarından, o cümlədən Barselona, Madrid, Valensiya, San-Sebastian şəhərlərindən, habelə Fransadan gəlmiş həmvətənlərimiz Azərbaycan bayraqlarını, “31 mart - Azərbaycanlıların Soyqırımı Günü”, “Qarabağ Azərbaycanın döyünən ürəyidir”, “Qarabağ Azərbaycana məxsusdur” şüarlarını nümayiş etdirərək Ermənistanın işğalçılıq siyasətini, ermənilərin növbəti təxribat əməlini üzə çıxararaq həmin əməlləri şiddətlə qınayıblar. Bundan hiddətlənən bəzi “konsert iştirakçıları”nın asayişi qoruyan polis əməkdaşlarına soydaşlarımızın etiraz aksiyasından şikayət etmələrinə, hətta qondarma “Dağlıq Qarabağ respublikası”nın bayrağını göstərməyə belə cəhd etmələrinə baxmayaraq, heç bir halda istədiklərinə nail ola bilməyiblər.

Aksiyaya toplaşan həmvətənlərimiz harada olmalarından asılı olmayaraq, erməni təxribatına qarşı çıxmağa hazır olduqlarını, ölkəmizin milli mənafelərinin qorunması baxımından bu cür təxribat əməllərinin qarşısının alınmasında hər zaman birlik nümayiş etdirərək səfərbər olacaqlarını qeyd ediblər.

**AZƏRTAC**

# Əhali tibbi müayinədən olduqca razıdır



Prezident İlham Əliyevin tapşırığına əsasən əhalinin pulsuz tibbi müayinədən keçirilməsi Qazax rayonunda da mütəşəkkilliklə davam edir. Qazax Diaqnostika Mərkəzində, şəhər poliklinikasında, eləcə də kəndlərdəki həkim və tibb məntəqələrində təşkil olunmuş müayinələr əhalini olduqca razı salır.

May ayının 12-dək davam edəcək tibbi müayinə aksiyasının bütün rayon ərazisində yüksək səviyyədə keçirilməsi üçün səhiyyə müəssisələri lazımi dərman preparatları və ləvazimatları ilə təchiz olunmuşdur. Müxtəlif ixtisaslı həkimlərin cəlb olunduğu 3 səyyar həkim briqadası yaradılmışdır. Həmin briqadalar tərtib edilmiş qrafikə uyğun olaraq kəndlərdə olur, xəstəxanalara getmək imkanı olmayan sakinləri evlərində müayinə edirlər. Müayinələr zamanı aşkar edilmiş xəstələr zərurət yarandıqda mərkəzi rayon xəstəxanasına göndərilir.

Martın 30-dək Qazax Diaqnostika Mərkəzində, şəhər poliklinikasında, həmçinin kənd həkim və tibb məntəqələrində təşkil edilən aksiyada 41795 nəfər tibbi müayinədən keçirilmişdir. Müayinədən keçənlərdən 38942 nəfəri sağlam hesab edilmiş, 196 nəfər stasionar, 2583 nəfər ambulator müalicəyə cəlb olunmuş, 74 nəfər ixtisaslaşmış tibb müəssisələrinə göndərilmiş, 70 nəfərin isə üzərində cərrahiyyə əməliyyatı aparılmışdır. Rayonun sərhəd kəndlərinin əhalisinin sağlamlıq durumunun öyrənilməsi diqqət mərkəzində saxlanılır. Aksiyanın başladığı gündən indiyədək səyyar həkim briqadaları rayonun Kəmərli, Qaymaqlı, Aslanbəyli, Quşçu Ayrım, Məzəm, Fərəhli, Cəfərli, eləcə də Daş Salahlı kəndlərində sakinləri tibbi müayinədən keçirmiş, aşkar edilmiş xəstəliklərlə bağlı səhiyyə xidməti göstərmişlər.

Rayonun Qazaxbəyli kəndində məskunlaşmış məcburi köçkünlər də unudulmamışdır. Həkim briqadaları burada məskunlaşmış Xeyrimli, Aşağı Əskipara və Yuxarı Əskipara kənd sakinlərini tibbi müayinədən keçirmişlər.

Hazırda pulsuz tibbi müayinələr davam edir. Rayon sakinləri böyük həvəslə səhiyyə ocaqlarına gəlir və öz sağlamlıq durumları barədə məlumat alırlar. Müayinədən keçən hər bir rayon sakini bu aksiyanın təşkilatçılarına minnətdarlıq edir.

***Sabir ƏLİYEV, “Azərbaycan”***

# Beynəlxalq aləm

## Ukraynada prezident seçkilərinin ikinci turu keçiriləcək



Srağagün Ukraynada keçirilmiş prezident seçkilərindən sonra səslərin təxminən 80 faizi sayılmışdır. Nəticədə şoumen Vladimir Zelenski 30,4 faiz səslə liderliyi ələ keçirmişdir. İkinci yerdə hazırkı dövlət başçısı Pyotr Poroşenko (16,1 faiz) qərarlaşmışdır. “Batkivşina” partiyasının lideri Yuliya Timoşenko 13,22 faiz səslə üçüncü yerdədir. Sonrakı yerləri “Həyat uğrunda - müxalifət platforması” partiyasının həmsədri Yuri Boyko (11,52 faiz), “Vətəndaş mövqeyi”nin lideri Anatoli Qritsenko (7,06 faiz), müstəqil namizəd İqor Smeşko (5,95 faiz), Radikal Partiyasının lideri Oleq Lyaşko (5,23 faiz), “Müxalifət bloku - Sülh və İnkişaf Partiyası”ndan namizəd Aleksandr Vilkul (4,3 faiz), “Svoboda” partiyasının namizədi Ruslan Koşulinski (1,65 faiz) tuturlar. Digər namizədlər 1 faizdən az səs toplamışlar.

Mərkəzi Seçki Komissiyası Zelenskini və Poroşenkonu prezident seçkilərinin ikinci turuna hazırlaşmağa çağırmışdır. Ukrayna prezidentliyinə seçkilərin ikinci turu aprelin 21-nə planlaşdırılmışdır.

## Slovakiyanın Prezidenti ilk dəfə qadın oldu



Slovakiyada keçirilmiş prezident seçkilərində vəkil Zuzana Çaputova qələbə qazanmışdır. İlkin məlumata görə, o, 57,5 faiz səslə qalib gəlmişdir. Bu barədə “Röyter” agentliyi xəbər verir.

Çaputovanın rəqibi Maroş Şefçoviç 42,4 faiz səs toplamışdır. O, Çaputovanı təbrik etmişdir.

Prezident seçkilərində 13 namizəd iştirak edirdi. İkinci tura parlamentdənkənar “Tərəqqipərvər Slovakiya” liberal partiyasının sədr müavini, vəkil Zazuna Çaputova (40,5 faiz) və Avropa Komissiyası başçısının müavini Maroş Şefçoviç (18,7 faiz) keçmişdilər.

## BMT Bruneyi şəriət qanunlarını ləğv etməyə çağırdı



BMT Bruneydə bu həftə qüvvəyə minəcək yeni qanunları pisləmiş və onları ləğv etməyə çağırmışdır. BMT-nin insan hüquqları üzrə ali komissarı Mişel Baçelet qanunları “sərt və rəhmsiz” hesab etmişdir.

Xatırladaq ki, sabah qüvvəyə minməsi planlaşdırılan şəriət qanunları zinaya, eynicinsli əlaqəyə və Məhəmməd peyğəmbərin təhqir olunmasına görə daşqalaq cəzasını nəzərdə tutur. Bu qanunlara görə oğruların əlləri kəsiləcək, abort etdirən qadınlar isə camaat qarşısında döyüləcəklər.

Yeni qanunlar ancaq müsəlmanlara şamil olunur.

Sultan Həssanal Bolkiahın 51 ildir hökmdarlıq etdiyi Bruney hələ 2013-cü ildə şəriət qanunlarını qəbul etmişdir. Lakin hüquq-müdafiə təşkilatlarının güclü müqaviməti ucbatından onların tətbiqi təxirə salınmışdı.

## Filippində 14 kommunist güllələndi



Filippində qiyamçı kommunist qruplaşmasına üzvlükdə şübhəli bilinən 14 nəfər polislə toqquşmada öldürülmüşdür. Bu barədə “Röyter” agentliyi xəbər verir. Yerli hüquq müdafiəçiləri ölənlərin adi fermer olduqlarını bildirirlər.

Filippin polisindən verilən məlumata görə, əsgərlərin dəstəyi ilə Şərqi Neqros rayonunda axtarış keçirilmişdir. Axtarış zamanı 14 nəfər polisə silahlı müqavimət göstərmişdir. Əməliyyat zamanı odlu silah, qumbara və müxtəlif döyüş sursatları aşkar edilmişdir. Bu arada hüquq-müdafiə təşkilatları güc strukturlarının hərəkətlərini pisləmiş və hadisənin müstəqil təhqiqini tələb etmişlər.

## Peruda sərnişin avtobusu yandı



Perunun paytaxtı Lima şəhərinin yaxınlığında sərnişin avtobusunda baş vermiş yanğın nəticəsində 20 nəfər həlak olmuşdur. Bu barədə Yanğından Mühafizə Departamentinin mətbuat katibi Lyuis Meciaya istinadən “Anadolu” agentliyi xəbər verir.

Ölənlərin əksəriyyəti avtobusun ikinci mərtəbəsində olmuşdular. Nəqliyyat vasitəsi şimal istiqamətində başqa şəhərə gedirdi. Həmçinin avtobusda odsöndürənlərin olmadığı aşkar edilmişdir.

*Təkrar*

## “Təmiz Şəhər” Açıq Səhmdar Cəmiyyəti xüsusi texnika və nəqliyyat vasitələri üçün şinlərin satın alınması ilə əlaqədar

### *açıq tender elan edir*

**Tender 1 LOT üzrə keçirilir:**

**Xüsusi texnika və nəqliyyat vasitələri üçün şinlərin satın alınması**

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu “Təmiz Şəhər” ASC Bakı şəhəri, Xocalı prospekti, 55 ünvanında yerləşən ofisindən əldə edə bilərlər. Əlaqələndirici şəxs - Tural Qüdrətov (telefon: 012 - 464-41-11)

İştirak haqqı **400** manat.

**AZN hesabı**
**Benefisiarın adı: Dövlət Xəzinədarlığı Agentliyi**
**Hesab nömrəsi: AZ07CTRE00000000000004587901**
**SWIFT: CTREAZ22**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**Xəzinə hesab kitabın (XHK) nömrəsi: 4587901**
**Fond: 7**
**İqtisadi təsnifat kodu: 142340**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı **30** bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin **1 faizi** həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı **60** bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *müəssisənin təcrübəsi haqqında məlumat;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının (Mənfəət vergi bəyannaməsi) surəti.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **19 aprel 2019-cu** il tarixə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **29 aprel 2019-cu il** saat 17:00-a qədər “Təmiz Şəhər” ASC-nin Xocalı prospekti, 55 ünvanında yerləşən ofisinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **30 aprel 2019-cu il** saat 17:00-da Bakı şəhəri, Xocalı prospekti, 55 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası

***Palatanın 2018-ci ilin yekunlarına görə Beynəlxalq Maliyyə Hesabatları Standartlarına (BMHS) uyğun illik maliyyə hesabatlarının audit olunması xidmətinə dair***

### B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən 15.02.2019-cu il tarixdə keçirilmiş “Palatanın 2018-ci ilin yekunlarına görə Beynəlxalq Maliyyə Hesabatları Standartlarına (BMHS) uyğun illik maliyyə hesabatlarının audit olunması” xidməti üzrə “kotirovka sorğusu” üsulu ilə satınalmaya dair müsabiqədə “Praysvoterhauskupers Audit Azərbaycan” MMC ƏDV daxil olmaqla 25.960,00 (iyirmi beş min doqquz yüz altmış) manat məbləği ilə qalib elan olunmuşdur və qalib gəlmiş təşkilatla 27 mart 2019-cu il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

Palata sorğuda iştirak etmiş digər şirkətlərə təşəkkür edir və fəaliyyətlərində uğurlar arzulayır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

***Sumqayıt Şəhər İcra Hakimiyyəti***

Körpələr evi-uşaq bağçaları üçün 2019-cu ilə “Avadanlığın alınması” və “Digər alışlar və xidmətlər”in kotirovkalar sorğusu üsulu ilə satın alınmasını həyata keçirir.

Maraqlanan təşkilatlar (018) 655-44-18 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 2019-cu il 19 aprel saat 17:00-dək, Sumqayıt şəhəri, Azərbaycan prospekti, 9 ünvanında qəbul olunur.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Azərbaycan qəzeti”nin 19 mart 2019-cu il tarixli nömrəsində “Azərsu” Açıq Səhmdar Cəmiyyətinin dövlət büdcəsi vəsaiti hesabına Nəqliyyat vasitələrinin və xüsusi texnikanın satın alınması məqsədilə dərc edilmiş açıq tenderin 2 LOT üzrə keçirilməsi müəyyən edilmişdir.

LOT 1-Nəqliyyat vasitələrinin və xüsusi texnikanın satın alınması və LOT 2-Qəza bərpa maşınlarına quraşdırılacaq avadanlıqların satın alınması.

(Əlaqələndirici şəxs: İlqar Tağıyev, 431 47 67/1033 və İntizam Novruzov, 431 47 67/3019)

***Tender komissiyası***

# Kür çayının Surra məntəqəsində suyun səviyyəsi 35 santimetr artıb



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin verdiyi məlumata görə, ötən günlər ərzində bəzi yerlərdə yağan yağış nəticəsində respublikanın əsasən Lənkəran-Astara bölgəsi çaylarında sululuğun artımı müşahidə olunub. Hazırda Böyük Qafqazın Quba-Xaçmaz bölgəsi çaylarında sululuq ongünlük normanın 60-70, Kiçik Qafqazın çaylarında 30-90, Lənkəran-Astara bölgəsi çaylarında isə sululuq ongünlük normanın 110-190 faizini təşkil edir.

Departamentdən AZƏRTAC-a bildiriblər ki, aprelin 1-də Kür çayının Qıraqkəsəmən məntəqəsində suyun səviyyəsində 2 santimetr artım müşahidə olunub. Hazırda məntəqədə su sərfi saniyədə 200 kubmetr olmaqla ongünlük normanın 43 faizini təşkil edir.

Qanıx çayının Əyriçay məntəqəsində suyun səviyyəsində 15 santimetr artım qeydə alınıb. Hazırda məntəqədə su sərfi saniyədə 96 kubmetr təşkil etməklə ongünlük normanın 70 faizinə bərabərdir.

Kür çayının aşağı axınında suyun səviyyəsi əsasən artıb. Belə ki, Kür çayının Surra məntəqəsində 35, Salyanda 20, Araz çayının Novruzlu məntəqəsində 10 santimetr artım, Şirvanda 4 santimetr azalma qeydə alınıb, Kür çayının Bankə məntəqəsində isə suyun səviyyəsində dəyişiklik müşahidə olunmayıb.

Hazırda suyun səviyyəsi Surra məntəqəsində 388, Şirvanda 163, Salyanda 127, Bankədə 167, Araz çayının Novruzlu məntəqəsində isə 60 santimetrə bərabərdir.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

**ALLAH RƏHMƏT ELƏSİN!**

Bakı şəhəri 6 saylı Vəkil Bürosunun kollektivi büronun vəkili Allahverdi Sadıqlıya əzizi

**ƏLİYAR MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 9097
Sifariş 1067
Qiyməti 40 qəpik